QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 207 (5438) 14 **noyabr** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


## BTQ-nin reallaşması ilə Azərbaycan dünyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir

*İlham Əliyev: “Gələcəkdə Şimal-Qərb və Cənub-Qərb Nəqliyyat Yolları istifadəyə veriləcəkdir. Bu iki nəhəng layihə bir çox böyük ölkələri birləşdirəcək”*

Səh 2




Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə “Hərəyə bir ağac əkək” kampaniyasına start verilib — 8

“Azərbaycanda əhalinin sağlam qida ilə təmin olunması istiqamətində atılan addımlar çox böyük əhəmiyyət kəsb edir” — 3

Siyavuş Novruzov: “YAP Azərbaycan xalqına uzun illər xidmət göstərəcək və yeni-yeni nailiyyətlərə imza atacaq” — 3

Bahar Muradova: “Azərbaycan ötən 25 ildə əldə etdiyi nailiyyətlərə söykənərək inamla irəliyə gedir” — 3

“Heydər Əliyev və Azərbaycan tarixi” bilik yarışının qalibləri ilə Dövlət Sərhəd Xidmətində görüş keçirilib — 4

Sosial evlər əlverişli şərtlərlə təqdim ediləcək — 12















3 — Şamaxıda Yeni Azərbaycan Partiyası gənclərinin regional konfransı keçirilib





13 — Qardaş Türkiyə düşmənin “dəyirmanını” susuz qoydu!





16 — Karateçilərimiz Avropa çempionatında bir qızıl və iki bürünc medal qazanıblar




səs
www.sesqazeti.az
facebook Ses Media Holding
14 noyabr 2017-ci il

# BTQ-nin reallaşması ilə Azərbaycan dünyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir

## *İlham Əliyev: “Gələcəkdə Şimal-Qərb və Cənub-Qərb Nəqliyyat Yolları istifadəyə veriləcəkdir. Bu iki nəhəng layihə bir çox böyük ölkələri birləşdirəcək”*



***Şərq-Qərb Nəqliyyat Dəhlizinin gerçəkləşməsi istiqamətində artıq istifadəyə verilmiş Bakı-Tbilisi-Qars Dəmir Yolunun böyük əhəmiyyəti Prezident İlham Əliyevin açılış nitqində də vurğulandı. Regionun və eləcə də, Avrasiya məkanının ən böyük layihələrindən biri olaraq dəyərləndirilən BTQ-dən Azərbaycan, Gürcüstan və Türkiyə ilə yanaşı, Çin, Qazaxıstan, Orta Asiya ölkələri də istifadə edəcəklər. O cümlədən, Şimal-Cənub Nəqliyyat Dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Avropa ölkələrini də özündə birləşdirəcək.***



Beləliklə, BTQ dəhlizin xidmətlərindən istifadə etmək marağında olan digər ölkələrin sıx nəqliyyat əlaqələri qurmasına böyük imkanlar açmaq potensialındadır.

Əbəs yerə deyil ki, bir çox aparıcı geopolitoloji mərkəzlər Azərbaycanın öz əlverişli coğrafi mövqeyinə görə Asiya və Avropa qitələri arasında körpü rolunu oynadıqlarını dəfələrə vurğulayıblar. Bu, ölkəmizə Avrasiya məkanında aparıcı rola malik olan Şərq-Qərb və Şimal-Cənub Nəqliyyat Dəhlizlərində önəmli yer tutmağa kifayət qədər zəmin yaradır.

Digər tərəfdən, BTQ Dəmir Yolu bağlantısı nəqliyyatın inkişafında yeni mərhələnin başlanması deməkdir. Onun istifadəyə verilməsi ilə nəqliyyatın imkanları genişlənir, sərnişin və yük daşımalarının həcmi artır. Bu, eyni zamanda turizmin inkişaf potensialına əlavə stimul verəcək. Ümumiyyətlə, dəmir yolunun Asiya və Avropa arasında yük və sərnişin axınının artmasına təkan verəcəyi, turistlərin gediş-gəlişi üçün rahatlıq yaradacağı, Xəzər dənizi və Qara dəniz arasında bağlantını təmin edəcəyi şəksizdir. İstər bu, istərsə də digər amillər baxımından, Bakı-Tbilisi-Qars Dəmir Yolu, nəinki region, eləcə də, bu xəttə qoşulacaq digər ölkələr üçün də mühüm əhəmiyyətə malik bir infrastruktur kimi çox dəyərləndirilir. Digər ölkələrin də bu layihəyə qoşulmaları nəticə etibarilə Tarixi İpək Yolunun inkişafına xidmət edəcək. Layihənin reallaşması nəticəsində Azərbaycan, Gürcüstan və Türkiyənin Orta Asiya, Çin və Avropa ilə etibarlı və səmərəli nəqliyyat əlaqəsi yaranacaq.

Prezident İlham Əliyev də vurğulayıb ki, hazırda Şimal-Cənub və Bakı-Tbilisi-Qars Nəqliyyat Dəhlizlərinin inteqrasiyası istiqamətində də iş aparılır. “Gələcəkdə Şimal-Qərb və Cənub-Qərb Nəqliyyat Yolları istifadəyə veriləcəkdir. Bu iki nəhəng layihə bir çox böyük ölkələri birləşdirəcək”-deyə qeyd edən ölkə başçısı, həmçinin, vurğulayıb ki, 2004-cü ildən bu günə qədər Azərbaycanda 11 min kilometr avtomobil yolu tikilib, 6 beynəlxalq hava limanı istifadəyə verilib. O cümlədən, bu gün Azərbaycanın çox böyük yük təyyarəsi parkı var: “Azərbaycanın Xəzər dənizində ən böyük dəniz donanması var - 270 gəmidən ibarət donanma Xəzərdə yükdaşımalarının təşkili üçün xüsusi rol oynayır. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi uğurla gedir, artıq liman fəaliyyət göstərir. Son illər ərzində Azərbaycanda nəqliyyat sektoruna qoyulan sərmayə nəticəsində çox güclü infrastruktur yaradılmışdır. Bu infrastruktur həm ölkə, həm bölgə və həm də dünya üçün böyük əhəmiyyət kəsb edir”.

Beləliklə, bu nailiyyət, belə qənaətə gəlməyə əsas verir ki, Azərbaycan qısa zaman içində kifayət qədər nəhəng yol qət edib və əldə edilən hər bir uğur həm iqtisadi, həm də siyasi cəhətdən böyük nailiyyət kimi qiymətləndirilir.

**Rövşən NURƏDDİNOĞLU**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Nüsrət Əyyubova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Gəncə şəhərində İdman Sarayının tikintisi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Gəncə şəhərində çoxmənzilli binaların əsaslı təmiri və abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Gəncə Dövlət Dram Teatrının tikintisinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev İraqın Baş naziri Heydər əl-Abadiyə başsağlığı verib. Başsağlığında deyilir: “Hörmətli cənab Baş nazir, ölkənizdə baş vermiş güclü zəlzələ nəticəsində insan tələfatı və dağıntılar barədə xəbərdən olduqca kədərləndim. Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İraq xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram. Allah rəhmət eləsin!”

***

Azərbaycan Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaniyə başsağlığı verib. Başsağlığında deyilir: “Hörmətli cənab Prezident, Ölkənizin qərbində baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram. Allah rəhmət eləsin!”

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının dövlət sərhədi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 2 oktyabr tarixli 787-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi münasibətilə bir qrup şəxsə “Əməkdar mühəndis” fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 2 oktyabr tarixli 786-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

## Əli Əhmədov: “Azərbaycanda əhalinin sağlam qida ilə təmin olunması istiqamətində atılan addımlar çox böyük əhəmiyyət kəsb edir”



Qida Təhlükəsizliyi Agentliyinin yaradılması ilə bağlı işlər davam etdirilir. Trend-in məlumatına görə, bunu Azərbaycan Respublikasının Baş nazirinin müavini Əli Əhmədov jurnalistlərə açıqlamasında deyib.

Baş nazirin müavini qurumun yeni agentlik olduğunu vurğulayıb: “Prezidentin fərmanı ilə həmin qurumun üzərinə çox böyük vəzifələr qoyulub. Azərbaycanda əhalinin sağlam qida ilə təmin olunması istiqamətində atılan addımlar çox böyük əhəmiyyət kəsb edir. Agentliyin yaradılması istiqamətində lazım olan hüquqi bazanın yaranması deмək olar ki təmin edilib. Sərəncam və lazım olan işlər yerinə yetirilib. Bu yaxınlarda digər tamamlama işləri həyata keçiriləcək”.

Ə.Əhmədov qeyd edib ki, həmin agentliyin böyük funksiyaları olacaq: “Təbiidir ki, agentliyin fəaliyyətə başlaması xeyli vaxt tələb edəcək. Bir neçə qurumlar var ki, həmin qurumlar da bu günə qədər qida təhlükəsizliyi funksiyası həyata keçirib. O funksiyalar həmin qurumlardan alınıb vahid bir mərkəzdə cəmləşəcək, bu proses həm hüquqi, həm texniki, həm də təşkilati baxımdan bir neçə vəzifənin yerinə yetirilməsini tələb edir. Onların üzərində iş aparılır”.

## Bahar Muradova: “Azərbaycan ötən 25 ildə əldə etdiyi nailiyyətlərə söykənərək inamla irəliyə gedir”



“25 il tarix üçün çox qısa müddətdir. Amma Azərbaycanda müstəqilliyin bərpasından keçən dövr kimi xarakterizə etsək 25 il həm də böyük bir müddətdir. Görülən işlərin miqyası baxımından bu illərdə böyük nailiyyətlər əldə olunub. Hesab edirəm ki, müstəqilliyimizin tam bərpası, dövlət atributlarının yaradılması, Azərbaycanın bölgədə və dünyada mövqeyinin möhkəmlənməsi, müstəqilliyin dönməz və əbədi olmasını təmin etmək istiqamətində atılan addımlar məhz Yeni Azərbaycan Partiyasının iqtidarda olduğu dövrə təsadüf edir. Bu da Ümummilli lider Heydər Əliyevin partiyamızı yaratmasından qısa müddət sonra hakimiyyətə qayıdışı, Onunla birlikdə partiyamızın yeni Azərbaycan quruculuğuna cəlb olunması ilə bağlıdır”. Bu fikirləri Milli Məclisin sədr müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova Yeni Azərbaycan Partiyasının ötən 25 ildə keçdiyi inkişaf yoluna münasibət bildirərkən deyib.

B.Muradova qeyd edib ki, bu illər hər bir partiya üzvü, hər bir Azərbaycan vətəndaşı üçün tarixi illərdir. Ötən 25 ilin hər günü, hər anı, hər dəqiqəsi xalqa , Vətənə xidmətdə keçib və bu xidmətin nəticələri də bu gün hiss olunmaqdadır.

“Biz vaxtilə Ulu öndər Heydər Əliyevin ideya olaraq irəli sürdüyü müstəqil, zəngin Azərbaycan quruculuğunun nəticələrini görməkdəyik. Ölkəmiz durmadan inkişaf edir, bölgədə və dünyada nüfuzu daha da artır. Azərbaycan beynəlxalq ictimai-siyasi proseslərin vacib aktorlarından biridir. Ölkəmiz region və dünya üçün yeritdiyi siyasətlə, bir sıra nəhəng enerji və digər layihələri ilə töhfələr verir. Azərbaycan kimi dövlətlərin beynəlxalq hüququn vacib subyektləri olması, belə bir ölkələrin sayının çox olması dünyadakı mövcud kataklizmlərin və anarxiyaya, ziddiyyətlərə aparan proseslərin qarşısını ala bilərdi. Çox təəssüf ki, bu gün belə dövlətlərin sayı azdır. Bununla belə, Azərbaycan ötən 25 ildə əldə etdiyi nailiyyətlərə söykənərək inamla irəliyə gedir. Həm Ulu öndər Heydər Əliyevin, həm də Onun rəhbərliyi ilə yaradılan YAP-ın qarşımıza qoyduğu vəzifələri yerinə yetirməklə daha yüksək hədəflərə doğru irəliləməkdədir. Bu 25 ilin hər günü xalqımıza xidmətdə keçib və mən bu illərin hər günü ilə qürur duyuram”- deyə, YAP İdarə Heyətinin üzvü vurğulayıb.

## Belarus və Ukrayna opera ulduzları Bakı teatrının səhnəsində




Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında italyan klassik operasının ən dəyərli nümunələrindən biri C.Verdinin “Riqoletto” operası növbəti dəfə nümayiş olunub. Teatrın mətbuat xidmətindən SİA-ya bildirilib ki, səhnə əsərində Riqoletto partiyasını milli vokal sənətimizin istedadlı nümayəndəsi Almaniyanın Manheym Milli Opera Teatrında müqavilə ilə çalışan həmyerlimiz, Xalq Artisti Əvəz Abdullayev ifa edib. Həmçinin, səhnə əsərində Xalq Artisti Əli Əsgərov (Sparafuçille) və gənc solist Nina Makarova (Maddalena) da çıxış ediblər.

Tamaşada əsas partiyalardan biri olan Cilda partiyasını isə Belarus Milli Akademik Böyük Opera və Balet Teatrının solisti, vokalçıların beynəlxalq müsabiqələr laureatı Tatyana Qavrilova canlandırıb. Eyni zamanda, Ukrayna Milli Operasının solisti, Ukraynanın Əməkdar Artisti, vokalçıların beynəlxalq müsabiqələr laureatı Dmitri Kuzmin operada Hersoq rolunu ifa edib. Xalq Artisti, professor Cavanşir Cəfərovun idarə etdiyi opera aktyorların ifasında tamaşaçıya inandırıcı ştrixlərlə, olduqca maraqlı tərzdə çatdırılıb.

## Siyavuş Novruzov: “YAP Azərbaycan xalqına uzun illər xidmət göstərəcək və yeni-yeni nailiyyətlərə imza atacaq”



“25 il əvvəl Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycan xalqının həyatında çox əlamətdar hadisədir. 1992-ci ilin noyabrında bu partiyanın yaradılması tarixi hadisədir”. Bu fikirləri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, YAP o dövrün mürəkkəb ictimai-siyasi proseslərin fonunda xalqın ümid yeri kimi yarandı. Onun sözlərinə görə, xalqın müxtəlif zümrələrinin, o cümlədən ziyalıların Ümummilli lider Heydər Əliyevə müraciəti nəticəsində partiyamız yarandı. O vaxtkı hakimiyyətin təzyiqlərinə baxmayaraq YAP qısa müddətdə təşkilatlandı, onun yerli strukturları formalaşdı.

“Yaranandan qısa müddət sonra partiyamızın qurucusu Heydər Əliyev hakimiyyətə gəldi. Ulu öndərin ikinci dəfə hakimiyyətə gəlişi ilə Azərbaycanda ictimai-siyasi sabitlik təmin olundu və ölkəmiz inkişaf və tərəqqi yoluna qədəm qoydu. Ötən 25 ilin mühüm hadisələrinə nəzər salsaq görərik ki, ən mühüm hadisələr məhz YAP hakimiyyətinin dövrünə təsadüf edir. Bu illər ərzində Azərbaycanda çox böyük işlər görülüb, dünyanın diqqətini cəlb edən layihələr reallaşdırılıb. Bütün bunlar Azərbyacanı nənki regionda, bütövlükdə dünyada aparıcı dövlətlərdən birinə çevirdi. Bu gün Azərbaycan sabitlik adasıdır, respublikamızda hərtərəfli inkişaf gedir, mötəbər beynəlxalq tədbirlər ölkəmizdə keçirilir. Bunların hamısı Yeni Azərbaycan Partiyasının xidmətidir və partiyamızın Sədri, cənab Prezident İlham Əliyev Ulu öndərin siyasi xəttini davam etdirməklə, YAP-ın uğurlarını daha da genişləndirir. Hesab edirik ki, YAP Azərbaycan xalqına uzun illər xidmət göstərəcək və yeni-yeni nailiyyətlərə imza atacaq”- deyə, YAP İcra katibinin müavini vurğulayıb.

## Şamaxıda Yeni Azərbaycan Partiyası gənclərinin regional konfransı keçirilib



Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşəbbüsü ilə Şamaxıda partiyanın yaradılmasının 25 illik yubileyinə həsr olunan gənclərin regional konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, regional konfransın iştirakçıları - Şamaxı, Qobustan, Ağsu, İsmayıllı, Kürdəmir, Göyçay, Ağdaş, Ucar və Zərdab rayonlarından olan gənclər əvvəlcə şəhərin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, dahi rəhbərin xatirəsini ehtiramla anıblar. Rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə dövlət himni səsləndirilib.



Şamaxı Rayon İcra Hakimiyyəti başçısının müavini - ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülnisə Ələkbərova çıxış edərək Yeni Azərbaycan Partiyasının 25 ildə keçdiyi şanlı yola nəzər salıb, onun ölkəmizin sosial-iqtisadi və ictimai-mədəni həyatında oynadığı roldan danışıb. Vurğulayıb ki, 25 illik yubileyini qeyd edən Yeni Azərbaycan Partiyası bu gün sıralarında 700 mindən çox insanı birləşdirir. YAP 25 ildə keçdiyi şanlı mübarizə tarixində ümumxalq partiyası olduğunu təsdiqləyib.

Çıxış edən YAP Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov bildirib ki, partiya fəallarının məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq respublikamızın hər yerində, o cümlədən Şamaxı rayonunda təşkilatın nüfuzu yüksəlib, sosial bazası xeyli güclənib.

Regional konfransda çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov partiyanın 25 ildə böyük siyasi qüvvəyə çevrildiyini, gənc üzvlərinin ölkəmizin sosial-iqtisadi həyatının bütün sahələrində fəal iştirak etdiklərini söyləyib. Partiya üzvlərinin 40 faizini gənclərin təşkil etdiyini diqqətə çatdıran S.Orucov Gənclər Birliyinin gördüyü işlər, həyata keçirdiyi layihələr haqqında məlumat verib.

Vurğulanıb ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti bu gün Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir, Azərbaycan gəncliyinin sabahına daha inamla baxmağa əsas verir.

Regional konfransda partiyanın Qobustan, Ağsu, İsmayıllı, Kürdəmir, Göyçay, Ağdaş, Ucar və Zərdab rayonlarının nümayəndələri görülən işlərdən, həyata keçirilən tədbirlərdən, habelə qarşıda duran vəzifələrdən danışıblar. Konfransda fəal gənclər fəxri fərmanlarla təltif olunublar.

# "Heydər Əliyev və Azərbaycan tarixi" bilik yarışının qalibləri ilə Dövlət Sərhəd Xidmətində görüş keçirilib

***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin irsinin və Ulu Öndərin banisi olduğu milli dövlətçiliyimizin təşəkkül tarixinin öyrənilməsi sərhədçilərimizin hərbi vətənpərvərlik tərbiyəsinin əsasını təşkil edir. Dövlət Sərhəd Xidmətinin (DSX) Heydər Əliyev Elmi Araşdırmalar Mərkəzinin dəstəyi və təşkilatçılığı ilə bütün hərbi hissələrdə, xüsusilə də DSX Akademiyasında və Xüsusi Məktəbində Ulu Öndərin həyat salnaməsinin, təhlükəsizlik orqanlarında xidmət illərinin və siyasi fəaliyyətinin, sərhəd təhlükəsizliyi konsepsiyasının banisi kimi Azərbaycan Sərhəd Mühafizəsi tarixindəki müstəsna xidmətlərinin tədqiq edilməsinə, gənc nəslin Heydər Əliyev ideyalarına sadiqlik ruhunda tərbiyəsinə ciddi önəm verilir.***





DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Heydər Əliyev Mərkəzinin və Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən, 44 ali təhsil müəssisəsinin təmsil olunduğu "Heydər Əliyev və Azərbaycan tarixi" IV ümumrespublika bilik yarışında Dövlət Sərhəd Xidmətinin Akademiyası 35 xal toplayaraq birinci yerə yüksəlib.



Dahi öndər Heydər Əliyevin irsinin öyrənilməsi istiqamətində həyata keçirilən tədbirlərin səmərəliyinin mühüm göstəricisi olan bu qələbə xəbərini Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti böyük sevinc və qürur hissi ilə qarşılayıb.

Noyabrın 13-də Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev bilik yarışının qaliblərini və onları hazırlamış müəllim heyəti ilə görüşüb.

General-polkovnik Elçin Quliyev kursantları və onların müəllimlərini qələbə münasibətilə təbrik edib, Azərbaycan Sərhəd Mühafizəsinin təşəkkülündə və formalaşmasında Heydər Əliyevin müstəsna rolunu xüsusi vurğulayıb. Xidmət rəisi 2014-cü ildən etibarən keçirilən bilik yarışında DSX Akademiyasının daim ilk beşlikdə yer tutmasını, ötən il ikinci, bu dəfə isə birinci pilləyə yüksəlməsini gənc sərhədçi nəslinin hərbi vətənpərvərlik və Heydər Əliyev ideyalarına sadiqlik ruhunda tərbiyəsi sahəsində qazanılmış ciddi uğur kimi qiymətləndirib.

"Heydər Əliyev və Azərbaycan tarixi" IV ümumrespublika bilik yarışında yüksək bilik və əzmkarlıq nümayiş etdirərək ən yüksək nəticə göstərmiş kursantlar və müəllimlər dövlət təltifləri və fəxri fərmanlar ilə mükafatlandırılıblar.

# 2018-ci il dövlət büdcəsi haqqında layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub

***Noyabrın 13-də Milli Məclisin İnsan hüquqları, Regional məsələlər, Hüquq siyasəti və dövlət quruculuğu, Mədəniyyət, Gənclər və idman komitələrinin birgə iclasında "2018-ci ilin dövlət büdcəsi layihəsi haqqında" qanun layihəsi müzakirə edilib.***

AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclis sədrinin müavini, insan hüquqları komitəsinin sədri Bahar Muradova 2018-ci ilin büdcə zərfində dünyadakı qlobal iqtisadi meyillər, maliyyə prosesləri və çağırışların nəzərə alındığını bildirib. Qeyd edib ki, bu dəfə də dövlət büdcəsinə daxil olan sənədlər büdcə sistemi qanunvericiliyinə uyğun, mükəmməl şəkildə hazırlanıb. Növbəti ilin büdcə zərfi ilə bağlı müzakirələr göstərir ki, bu ali sənədə bütövlükdə cəmiyyətdə çox ciddi maraq var. Çünki bu sənəd qarşıdakı növbəti üç ilin inkişaf istiqamətlərini özündə əks etdirir.



Eyni zamanda, qeyd olunub ki, sənəddə Azərbaycan iqtisadiyyatının 2016-2017-ci illər ərzindəki inkişaf perspektivləri və nəticələri, beynəlxalq miqyaslı risklər və bunların büdcə parametrlərinə mövcud təsirləri ətraflı araşdırılıb. Potensialın yerli tələblər nəzərə alınaraq ödənilməsi, rabitə, nəqliyyat strukturlarına, təhsil, səhiyyə, mədəniyyət sahələrinə ayırmalar büdcə zərfinin sosialyönümlü olduğunu aydın göstərir.

Bahar Muradova ali iqtisadi sənəddə insan kapitalına mühüm önəm verilməsini də təqdirəlayiq hal kimi dəyərləndirib, gəlir və xərclərin 2017-ci illə müqayisədə artırılmasının mühüm məqam olduğunu bildirib.

Sonra iclasda maliyyə nazirinin müavini Azər Bayramov 2018-ci il üçün dövlət büdcəsi layihəsi barədə məlumat verərək bildirib ki, sənəd ölkəmizin milli iqtisadiyyatının başlıca sektorları üzrə Strateji Yol Xəritəsinə və dünyada baş verən iqtisadi proseslərin təhlilinə əsasən hazırlanıb.

Qeyd olunub ki, gələn ilin dövlət büdcəsinin gəlirləri 20 milyard 127 milyon manat nəzərdə tutulur. Bu 2017-ci ilin proqnozu ilə müqayisədə 3 milyard 361 milyon manat çoxdur. Növbəti il üçün proqnozlaşdırılan ÜDM-in tərkibində büdcə gəlirlərinin xüsusi çəkisi cari illə müqayisədə 4,4 faiz artaraq 29 faiz təşkil edəcək. Dövlət büdcəsinin gəlirlərinin 9 milyard 31 milyon manatı və ya 44,9 faizi qeyri-neft sektoru üzrə daxilolmaların payına düşəcək. 2018-ci il dövlət büdcəsinin xərcləri cari ilin təsdiq olunmuş büdcə xərcləri ilə müqayisədə 2 milyard 965 milyon manat və ya 16,5 faiz çox olmaqla mütləq ifadədə 20 milyard 906 milyon manat məbləğində proqnozlaşdırılır.

Azər Bayramov qeyd edib ki, 2018-ci il üçün dövlət büdcəsi xərclərinin tərkibində sosialyönümlü xərclərin xüsusi çəkisi 36,6 faiz olacaq. Elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, sahələrinə 5 milyard 372 milyon manat vəsait nəzərdə tutulur. Bütövlükdə bu sahələr üzrə nəzərdə tutulmuş xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 25,7 faiz təşkil edəcək.

Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi xərclərinin maliyyələşməsi üçün 304 milyon manat vəsait nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 22 milyon manat çoxdur. Həmin mənbədən mədəniyyət, incəsənət tədbirləri və KİV-lərin maliyyə təminatı üçün 260 milyon manat vəsait yönləndiriləcək. Bədən tərbiyəsi, idman tədbirlərinin və gənclər siyasətinin həyata keçirilməsi üçün 44 milyon manat vəsait proqnozlaşdırılır. Bələdiyyələrə 5,2 milyon, QHT-lərə 3,6 milyon, dini qurumlara və icmalara 3,4 milyon, siyasi partiyalara 2,5 milyon, KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fonduna 4 milyon, Gənclər Fonduna 2 milyon, Elmin İnkişafı Fonduna 4 milyon, Bilik Fonduna 1 milyon manat vəsait ayrılması nəzərdə tutulub.

Azər Bayramov bildirib ki, gələn il üçün xarici ölkələrdəki mədəniyyət mərkəzlərinin saxlanmasına 2,4 milyon manat, populyar xarici telekanallar vasitəsilə Azərbaycan turizminin təbliğinə 3,5 milyon manat vəsait ayrılır. Sosial mənzillərin tikintisinə və ipoteka layihələrinin maliyyələşdirilməsinə 250 milyon, "ASAN xidmət"in göstərdiyi xidmətlərin dairəsinin genişləndirilməsinə isə 24,6 milyon manat vəsait nəzərdə tutulub. Onun sözlərinə görə, 2018-ci ilin dövlət büdcəsi gəlirlərinin tərkib hissəsi olan yerli gəlirlər 651 milyon manat proqnozlaşdırılıb ki, bu da cari illə müqayisədə 4 milyon manat çoxdur. Gələn il rayon və şəhərlərin yerli xərcləri 424 milyon manat təşkil edəcək. 2018-ci ildə xərclərini öz gəlirləri hesabına təmin edəcək 33 rayon və şəhər istisna olmaqla yerdə qalan hissənin yerli xərclərinin tənzimlənməsi üçün dövlət büdcəsindən mərkəzləşdirilmiş xərclər üçün ayrılan maliyyə yardımının yerli xərclərin tərkibində xüsusi çəkisi 10,1 faiz olacaq.

Sonra iclasda iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirib ki, Prezident İlham Əliyevin müəyyən etdiyi prioritet istiqamətlərə uyğun olaraq növbəti ilin xərclərinin sosial və investisiyayönümlülüyü təmin edilib, əhalinin rifah halının və sosial müdafiəsinin daha da gücləndirilməsi əsas məqsəd kimi qarşıya qoyulub. Büdcə layihəsinin tərtibi zamanı İqtisadiyyat Nazirliyinin hazırladığı 2018-2021-ci illər üzrə makroiqtisadi proqnoz göstəriciləri, o cümlədən 2018-ci ildə ÜDM-in 1,5 faizlik, qeyri-neft ÜDM-in isə 2,9 faizlik artım sürəti əsas kimi qəbul edilib. Dövlət və icmal büdcələrinin gəlirlərinin hesablanması üçün bir barrel xam neftin satış qiyməti 45, növbəti illər üçün isə 40 dollar müəyyən edilib.

Onun sözlərinə görə, gələn il ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması üzrə sistemli tədbirlər davam etdiriləcək. Gələn il Azərbaycanın turizm sektorunun 6,6 faiz, sonrakı 3 ildə isə 6 faizdən çox artacağı proqnozlaşdırılır. İKT sektorunda gələn il 5,1 faiz, növbəti illərdə 6 faizdən çox artım nəzərdə tutulur.

Dövlət büdcəsi layihəsinin müəyyən edilmiş zaman çərçivəsində və qanunvericiliklə təsbit olunmuş tələblərə uyğun hazırlandığını vurğulayan Hesablama Palatasının sədri Vüqar Gülməmmədov isə layihə ilə bağlı palatanın hazırladığı ümumiləşdirilmiş nəticələri və tövsiyələri diqqətə çatdırıb. Bildirilib ki, növbəti ilin dövlət büdcəsinin xərcləri Prezident İlham Əliyev tərəfindən sosial sahədə müəyyən edilmiş tapşırıqların icrasını təmin etmək üçün etibarlı maliyyə təminatı yaratmış olacaq. İclas qanun layihəsi ətrafında müzakirələrlə davam etdirilib. Milli Məclisin deputatları, həmçinin insan hüquqları üzrə müvəkkil (ombudsman) Elmira Süleymanova qanun layihəsinə müsbət münasibət bildiriblər, təkliflərini səsləndiriblər.

Sonra maliyyə nazirinin müavini Azər Bayramov, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova deputatları maraqlandıran suallara aydınlıq gətiriblər. Müzakirələrdən sonra "2018-ci ilin dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# "Azərbaycanın dövlətçilik tarixində mühüm əhəmiyyəti olan partiya" adlı tədbir keçirildi









**Dünən YAP Yasamal rayon təşkilatının qərargahında Yeni Azərbaycan Partiyasının Qadınlar Şurasının təşəbbüsü ilə partiyanın yaradılmasının 25-ci ildönümünə həsr olunmuş "Azərbaycanın dövlətçilik tarixində mühüm əhəmiyyəti olan partiya" adlı tədbir keçirildi.**

Əvvəlcə tədbir iştirakçıları qərargahın foyesində Ümummilli Lider Heydər Əliyevin büstünün önünə gül dəstələri düzüb, Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını ifadə ediblər. Tədbirdə Dövlət Himninin səsləndirilməsindən sonra YAP-ın 25 illik fəaliyyətinə həsr olunmuş film nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Qadınlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü, Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyeva bildirdi ki, bu günlər xalqımız partiyamızın yaradılmasının 25-ci ildönümünü böyük təntənə ilə qeyd edir. 1992-ci ilin tariximiz üçün, xalqımız üçün sınaq dövrü olduğunu bildirən N.Əliyeva Azərbaycanın həmin dövrdə parçalanmaq təhlükəsi ilə üz-üzə qaldığını diqqətə çatdırdı: "Ölkəmizə uzanan əllər bir fürsət gözləyirdi. İnsanlar həmin dövrdəki rəhbərliyin qurtuluş yolu tapacağına inanmırdı. Ona görə də, ölkədə təbəddülatlar, hərc-mərclik baş alıb gedirdi. Belə bir dövrdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılan YAP tez bir zamanda xalqın partiyasına çevrildi".

N.Əliyeva qeyd etdi ki, Ulu Öndər Heydər Əliyev qadınların cəmiyyətdəki nüfuzuna, onların mənəvi potensialına, dərin müşahidəsi və həyati biliyinə bələd idi: "Odur ki, bu zərif, həm də çox güclü zümrənin dövlətçilik və müstəqilliyimizin çətin yollarında böyük dayaq olacağına inanırdı. Bu inam ilə 1995-ci ildə YAP Qadınlar Şurası yaradıldı".



N.Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin müavini Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin hər bir qadın üçün örnək olduğunu bildirdi. Nurlana xanım bildirdi ki, Mehriban xanım Əliyeva bu gün Azərbaycan qadınına bir örnəkdir. Onun Azərbaycanın çiçəklənməsi naminə gördüyü işlər, nəcibliyi, xeyirxahlığı artıq ölkəmizin hüdudlarından kənarda da səslənir və təqdir olunur. Bu da Azərbaycan qadınının nə qədər elinə-obasına bağlılığını, vətənpərvərliyini, millət təəssübkeşliyini bir daha sübut edir".

Tədbirdə çıxış edən Milli Məclisin Sədr müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova partiyanın 25 illik yubileyi münasibətilə ölkəmizin hər yerində bu münasibətlə tədbirlərin keçirildiyini vurğulayaraq, partiyanın yubileyini ümumxalq bayramı kimi səciyyələndirdi.

B.Muradova YAP-ın Azərbaycanın siyasi həyatındakı əhəmiyyətini qeyd edərək, partiyanın yaranması və uğurlu siyasi fəaliyyəti ilə Azərbaycanı düşdüyü çətin vəziyyətdən xilas etdiyini, xalqımızı nicat yoluna çıxardığını vurğuladı. Müxalifət partiyası kimi yaranan YAP-ın qısa müddətdə iqtidara gəlməsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə böyük inam və etimadından qaynaqlanırdı. Xalqımız öz gələcək taleyini bu ideologiyaya bağlamaqla nə qədər uzaqgörən və müdrik olduğunu bir daha sübut etmiş oldu. Bu ideologiya xalqımızı həmrəy etdi, dövlətimizi daha da inkişafa və tərəqqiyə apardı.

O, ölkəmizin qazandığı nailiyyətlərdən danışaraq, bu uğurların Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticəsi olduğunu söylədi.

Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü Hicran Hüseynova, Memarlıq və İnşaat Universitetinin rektoru, YAP Siyasi Şurasının üzvü Gülçöhrə Məmmədova və xalq artisti Mələykə Əsədova çıxış edərək partiyanın keçdiyi inkişaf yolundan, qazandığı nailiyyətlərdən və qadınların ictimai-siyasi proseslərdə iştirakından bəhs etdilər.

Sonra YAP Qadınlar Şurasının fəaliyyətində fərqlənən bir qrup qadına Fəxri Fərmanlar təqdim olunub.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Fövqəladə hallar nazirinin rəhbərliyi ilə nümayəndə heyəti Dubayda beynəlxalq aviasiya sərgisində iştirak edib






Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə nümayəndə heyəti Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən "Dubai Airshow 2017" beynəlxalq aviasiya sərgisində iştirak edib.

Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 12-də açılan və bu ayın 16-dək davam edəcək "Dubai Airshow 2017" ən böyük beynəlxalq aviasiya sərgisi hesab olunur. Sərgidə 60-dan çox ölkədən 1200-dən artıq eksponat, 160-dan çox müasir təyyarə nümayiş etdirilir. "Dubai Airshow" sərgisində mülki, hərbi və ümumi təyinatlı aviasiya, kosmik texnika, biznes, təyyarədə təhlükəsizlik, yük aviadaşımaları, aeroportlar üçün həllər, hərbi texnika, texnologiya və aviasiya sənayesində texnologiyalar üzrə pavilyonlar yaradılıb.

## Sevinc Həsənova: Gələn il iqtisadiyyata 15,9 milyon manat investisiya qoyuluşu proqnozlaşdırılır



2018-ci ildə ölkə iqtisadiyyatına 15,9 milyon manat həcmində investisiya qoyuluşu proqnozlaşdırılır. Bu barədə məlumat verən iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova qeyd edib ki, eyni zamanda, biznes mühitinin daha da yaxşılaşdırılması üzrə sistemli tədbirlər davam etdiriləcək. "Gələn il Azərbaycanın turizm sektorunun 6,6 faiz, sonrakı 3 ildə isə 6 faizdən çox artacağı proqnozlaşdırılır. Artım İKT sektorunda da gözlənilir. İKT sektorunda gələn il 5,1 faiz, növbəti illərdə 6 faizdən çox artım nəzərdə tutulur."

## Mahmud Məmməd-Quliyev: Aİ və Azərbaycan arasında aviasiya sazişi yaxın zamanlarda imzalana bilər



Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında vahid aviasiya məkanı haqqında saziş yaxın zamanlarda imzalana bilər. Bunu Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev deyib. Onun sözlərinə görə, bu saziş üzərində işlər davam edir və sazişin noyabrın 24-ü Brüsseldə keçiriləcək "Şərq tərəfdaşlığı" sammiti çərçivəsində imzalanacağı da istisna olunmur.

## Binəqədidə YAP-ın yaradılmasının 25 illik yubileyinə həsr olunmuş “Dünənin karvanı sabaha doğru” adlı tədbir keçirilib



Yeni Azərbaycan Partiyası Qadınlar Şurası və Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə “Dünənin karvanı sabaha doğru” adlı tədbir keçirilib. Tədbirdən öncə iştirakçılar Ulu Öndər Heydər Əliyevin Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binası önündə ucaldılmış abidəsinə gül dəstələri qoyaraq, əziz xatirəsinə böyük ehtiramla yad ediblər. Tədbirdə öncə Yeni Azərbaycan Partiyasının tarixinə,





Ümummilli Lider Heydər Əliyevin, dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov partiyanın Qadınlar Şurası ilə birgə belə bir möhtəbər tədbirin Binəqədi rayonunda keçirilməsindən məmnun olduğunu bildirib. Sədr Yeni Azərbaycan Partiyasının tariximizin ağır günlərində yarandığını və sonradan bu partiyanın dövlətimizin çiçəklənməsində və xalqımızın firavanlığına qovuşmasında misilsiz xidmətlər göstədiyini bildirib: “Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və dövlətimizin rifahına hədəflənmiş uğurlu siyasi strategiyasının məntiqi nəticəsi idi. Bu gün də bu siyasətin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi qazanılan nailiyyətlərin davamlı olmasına əsaslı zəmin yaradır. Məhz bunun nəticəsidir ki, Azərbaycan daha da inkişaf edir, öz nüfuzunu durmadan artırır.” Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının sədri, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Nurlana Əliyeva da partiyanın keçdiyi ağır və şərəfli tarixi yola nəzər salıb. Partiyanın təsis edildiyi illərdə ölkəmizin ciddi problemlərlə üz-üzə qaldığını və xalqımızın çox çətin günlər yaşadığını vurğulayıb. Lakin partiyanın yaranması və dahi şəxsiyyət Heydər Əliyevin xalqın inam və etimadının sayəsində Prezident seçilməsindən sonra dövlətimizin qüdrətlənməyə və inkişaf etməyə başladığını diqqətə çatdırıb. Nurlana Əliyeva bu gün ölkəmizdə sosial problemlərin öz həllini tapdığını və xalqımızın daha da yaxşı yaşaması üçün dövlət başçısı İlham Əliyev tərəfindən həyata keçirilən islahatlardan danışıb.

Tədbirdə çıxış edən Milli Məclisin Sədr müavini, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Bahar Muradova Yeni Azərbaycan Partiyasının Azərbaycanın siyasi sistemindəki əhəmiyyətli rolundan bəhs edib: “Bu partiyanın yaranması və uğurlu siyasi fəaliyyəti ilə Azərbaycan düşdüyü çətin vəziyyətdən xilas oldu, hədəflədiyi bütün məqsədlərə nail oldu və xalqımız öz nicat yoluna qədəm qoydu. Partiyanın yaranarkən müxalifətdə olmasına baxmayaraq, qısa müddət ərzində iqtidara gəlməsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə olan böyük inam və etibarından qaynaqlanırdı. Xalqımız düşdüyü ağır vəziyyətdən onu xilas edə biləcək yeganə şəxsiyyətin Heydər Əliyev olduğunu anlayırdı. Məhz bu səbəbdən də, xalq Dahi Şəxsiyyətə üz tutdu. Beləliklə, xalqımızın ziyalı oğul və qızlarının təşəbbüsü və xahişi ilə Yeni Azərbaycan Partiyası yaradıldı və Heydər Əliyev bu partiyaya Sədrlik etməyə başladı, daha sonra isə xalq səsvermәsinin nəticəsi olaraq Prezident seçildi.” B.Muradova ölkəmizin qazandığı çoxsaylı uğurlardan danışaraq, bütün bunların həyata keçirilən uğurlu siyasətin nəticəsi olduğunu söyləyib. Bütün xalqımızı, qadınları Heydər Əliyev ideologiyası ətrafında sıx birləşməyə çağırdı.

Tədbirdə, həmçinin, çıxış edən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı qadınlar şurasının sədri Aytac Əliyeva, Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatı qadınlar şurasının sədri Hicran Xəlilova ölkəmizdə həyata keçirilən uğurlu qadın siyasətindən və qadınların cəmiyyətdə və ictimai-siyasi həyatda aktiv fəaliyyətindən danışıblar. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınlarının bütün sferalarda uğurlar qazandığını və bu uğurların ölkəmizin daha da çox inkişaf etməsinə zəmin yaratdığını vurğulayıb. Tədbir Binəqədi rayon icra hakimiyyəti başçısının müavini Aygün Əliyeva çıxışında Yeni Azərbaycan Partiyasının Azərbaycanın siyasi həyatında əvəzsiz rolundan, bu partiyanın təkcə ölkəmizdə deyil, Qafqazda, hətta bütün dünyada yüksək nüfuza malik olduğunu qeyd edib. Partiyanın sıralarının günbəgün artmasını, sosial bazasının daha da möhkəmlənməsini Ulu Öndər Heydər Əliyev ideologiyasına etimadın və dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin siyasətinə dəstəyin bariz nümunəsi olduğunu söyləyib.

Sonra tədbir bədii hissə ilə davam etdirilib.

***ZÜMRÜD***

## Xalqın istək və arzularını reallaşdıran Yeni Azərbaycan Partiyası



Dünən YAP Nəsimi rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə partiya veteranları ilə görüş keçirildi. Tədbiri giriş sözü ilə YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı açaraq, YAP-ın keçdiyi şərəfli yola nəzər saldı: “Bildirdi ki, YAP Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir zamanda Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranıb. Ölkəmizi xaos və anarxiyadan, vətəndaş müharibəsindən, iqtisadi tənəzzüldən, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas





edib davamlı sabitlik, tərəqqi və iqtisadi yüksəliş yoluna çıxaransiyasi qüvvə olan Yeni Azərbaycan Partiyası xalqımızın taleyində müstəsna rol oynadı”.

M.İbrahimqızı böyük bir inkişaf dövrü keçən Azərbaycanın son illərdə böyük uğurlar əldə etdiyini diqqətə çatdırdı. Təkcə neft, qaz sektorunda deyil, eyni zamanda, qeyri-neft sektorunda nailiyyətlər əldə olunduğunu bildirərək, tənəzzüldən tərəqqiyə doğru irəliləyən Azərbaycanın bütün sahələrində dönüş yarandığını vurğuladı:”Yeni Azərbaycan Partiyası 25 il ərzində vətənimizin layaqətli oğul və qızlarını öz sıralarında birləşdirməklə yanaşı, Azərbaycan dövlətinin siyasi istiqamətinin düzgün müəyyənləşdirilməsində, iqtisadi və sosial inkişafında, ölkəmizin daxili və xarici siyasət balansının tarazlaşdırılmasında mühüm rol oynamış, habelə, respublikamızda keçirilən prezident, parlament, bələdiyyə seçkilərində uğurlu qələbə qazanaraq, qanunların hazırlanmasında və ölkənin idarə olunmasında müstəsna xidmət göstərmişdir”.

M.İbrahimqızı çıxışında onu da bildirdi ki, Yeni Azərbaycan Partiyası milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanır, Ümummilli Lider Heydər Əliyev siyasi irsinə söykənir: “Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil, demokratik Azərbaycan onun müəyyən etdiyi strateji xətlə inamla irəliləyir və inkişafını davam etdirir. Ulu Öndərin bu siyasi xəttini əzmlə irəli aparan isə Onun layiqli davamçısı Prezident İlham Əliyevdir”.

Tədbirdə çıxış edən YAP Siyasi Şurasının üzvü, YAP Nəsimi rayon təşkilatının sədr müavini Asif Əsgərov bildirib ki, Yeni Azərbaycan Partiyasının zamanın istəyi və millətin işıqlı gələcəyi naminə yaranıb: “Partiyanın Yaradıcısı olan Ulu Öndər Heydər Əliyevin parlaq siyasi zəkası və bacarığı sayəsində Azərbaycanın bugünkü gerçəkliklərini yaratmış və ölkəni gələcəyə aparan yolları müəyyən etmişdir. Son illərdə əhəmiyyətli sosial proqramlar həyata keçirilir. Prezident İlham Əliyevin imzaladığı və Onun rəhbərliyilə reallışdırılan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bölgələrin siması tamamilə dəyişib, iri istehsal müəssisələri açılıb, minlərlə iş yerləri yaradılıb, insanların güzəranı yüksəlib: “Tədbirdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədr müavini, millət vəkili Cavid Qurbanov Yeni Azərbaycan Partiyasının şərəfli mübarizə tarixindən, Ümummilli Lider Heydər Əliyevin doğma xalqı qarşısında misilsiz xidmətlərindən danışıb. O, qeyd edib ki, məhz Ulu Öndərin uzaqgörənliyi və qlobal düşüncə qabiliyyəti hesabına enerji, nəqliyyat və digər sahələrdə müstəsna aktuallığını bu gün bariz şəkildə göstərən milli strategiyalar işlənib- hazırlandı və həyata keçirildi. C Qurbanov bu yaxınlarda istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əhəmiyyətindən də danışıb.

Sonda bir qrup partiya veteranına YAP Nəsimi rayon təşkilatı tərəfindən YAP-ın yaradılmasının 25 illik yubileyi münasibətilə Fəxri fərmanlar və hədiyyələr verildi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın şanlı siyasi tarixinin parlaq səhifələrindən biridir

## YAP Qadınlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü, Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyevanın yap.org.az-a müsahibəsi

***- Nurlana xanım, bu günlər ölkəmizin bütün guşələrində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi böyük təntənə ilə qeyd olunur. Ötən 25 il ərzində partiyamızın fəaliyyəti və onun Azərbaycan dövlətçiliyinin inkişafına verdiyi töhfələri necə dəyərləndirirsiniz?***

- Müasir müstəqil Azərbaycanın şanlı siyasi tarixinin mühüm səhifələrindən birini ümumxalq partiyası olan YAP-ın yaradılması təşkil edir. Bu mərhələni ona görə qürur və iftixar hissi ilə şanlı tarix adlandırırıq ki, Yeni Azərbaycan Partiyasının yaradılması ilə xaos və hərc-mərclik içində olan, vətəndaş müharibəsi və dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə qarşı-qarşıya qalan Azərbaycanın xilasının, tənəzzüldən azad olaraq tərəqqi yoluna nail olmasının əsası qoyuldu. Milli maraqların keşiyində duran və vətənpərvərlik hissinin daşıyıcısı olan hər bir azərbaycanlının etibarlı partiyasına çevrilən YAP-ın müstəqil Azərbaycanın siyasi tarixindəki misilsiz roluna nəzər salmaq üçün bir sıra məqamlara toxunmaq lazımdır.

Məlum olduğu kimi, həmin dövrdə hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi, ölkəni idarə edə bilməməsi səbəbindən Azərbaycan hətta parçalanmaq təhlükəsi ilə üzüzə qalmışdı. Ölkəmizin sərvətlərinə göz tikən bədxah qüvvələr Azərbaycanı xaos meydanına çevirməyə və öz maraqları əsasında idarə etməyə çalışırdılar. İnsanlar həmin dövrdəki rəhbərliyin ölkəni xilas edəcəyinə inanmırdılar. Məhz belə bir dövrdə güclü siyasi liderə və təşkilatlanmış qüvvəyə ehtiyac olduğu üçün insanların mənəvi gücünü səfərbər etmək, ölkəmizi düşdüyü mürəkkəb vəziyyətdən xilas etmək naminə Ulu öndər Heydər Əliyev vətənpərvər ziyalıların təkidli çağırışlarını və müraciətlərini nəzərə alaraq YAP-ı yaratdı. YAP-ın yaranması həm də tarixi zərurətin nəticəsi, sosial sifariş - çağırış idi. İlk günlərdən partiyanın sıralarına ən nüfuzlu şəxslər, ziyalı və vətənpərvər insanlar toplaşdı. Əslində, YAP xalqın partiyası kimi yarandı, onun çətinliklərini dəf etmək üçün fəaliyyətə başladı. İnsanlar YAP-ın simasında sivil mübarizənin yollarını müəyyən etdilər. Demokratik prinsiplərə və qaydalara alışdılar. YAP-ın siyasi səhnəyə gəlişi ilə cəmiyyətdə dövlətçilik, müstəqillik ideyaları, vətənpərvərlik duyğuları, sanki, yenidən daha mütəşəkkil şəkildə formalaşmağa və yaşamağa başladı.

Tarix özü YAP-ın ümumxalq partiyası olduğunu sübuta yetirdi. Ötən müddət ərzində partiyamız dövlətimiz və cəmiyyətimizin inkişafına misilsiz, layiqli töhfələr verdi, vətənpərvər, ziyalı insanları öz ətrafında sıx birləşdirdi. Bu gün xalqın partiyası olan YAP Ümummilli liderimiz Heydər Əliyevin ideyaları əsasında gündən günə inkişaf edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrlik etdiyi YAP ötən zaman kəsiyində xalqın



inam və etimadı əsasında bütün seçkilərdə möhtəşəm qələbələr qazandı, öz fəaliyyətini uğurla davam etdirdi. Partiyamızın 25 illik yubileyi respublikamızın hər bir bölgəsində bayram əhvalında, təntənəli şəkildə qeyd edilir. Bu, xalqımızın Yeni Azərbaycan Partiyasına dərin rəğbət və hörmətinin bariz nümunəsidir.

***- Partiyamızın dövlətimizin inkişafı istiqamətində həyata keçirdiyi işlərdə qadınlarımız da fəal iştirak edir. YAP Qadınlar Şurası partiyamızın fəaliyyətində xüsusi yer tutur. Qadınlar Şurasının yaradılması və fəaliyyəti ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasında qadınların roluna və təmsilçiliyinə verilən önəmdən qaynaqlanır. Bu mənada YAP Qadınlar Şurasının sədri kimi siz qadınların partiya həyatında iştirakı barədə nə deyə bilərsiniz?***

- Əvvəla qeyd etmək istəyirəm ki, cəmiyyətin ən dinamik və aktiv təbəqələri sırasında yer alan, milli müstəqillik və dövlətçilik ideyaları ətrafında sıx birləşən Azərbaycan qadınları bu gün də dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak edərək Vətənimizin sosial-iqtisadi, elmi-intellektual potensialının artırılmasına, mədəniyyətimizin inkişafına layiqli töhfələrini verirlər. Azərbaycan qadını Vətən üçün milli-mənəvi dəyərlərimizin qoruyucuları, adət-ənənələrimizin yaşadıcıları olan, nəsillər arasında varisliyi ləyaqətlə davam etdirən övladlar tərbiyə edib yetişdirirlər.

Bir məqamı xüsusi olaraq diqqətə çatdırmaq istəyirəm. Azərbaycan qadınının bgünkü fəallığının, cəmiyyət həyatının müxtəlif sahələrdə uğurla və ləyaqətlə təmsil olunmasının təmin olunmasında Ulu öndər Heydər Əliyevin xidmətləri misilsizdir. Zənnimcə, Azərbaycanın dövlətçilik tarixində Ulu öndər Heydər Əliyevə qədər Azərbaycan qadınının fikrən və ruhən pərvazlandıran, onu böyük cahanşümul işlərə ruhlandıran, ona cəmiyyətdə layiq olduğu yeri təklif və təmin edən ikinci bir dövlət rəhbəri olmamışdır. Sevindirici haldır ki, həmin siyasət bu gün partiyamızın Sədri, ölkə başçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

YAP Qadınlar Şurasının fəaliyyətinə gəldikdə isə qeyd edə bilərəm ki, təşkilatımızın fəaliyyətinin əsasında dövlətçiliyimizə xidmət dayanır. YAP Qadınlar Şurası Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında öz fəaliyyətini davam etdirir. Bu gün YAP-ın sıralarında 700 mindən çox yaxın insan birləşib və bu, böyük bir ordudur. Bu ordunun sıralarında qadınlar təxminən 50 faiz təşkil edir. YAP öz ideyalarını həyata keçirərkən qadınlara və gənclərə də istinad edir. Ona görə ki, hər iki qurumun sırası möhtəşəmdir. Onlar yüksək ideoloji əsaslarla formalaşıb, tərkibi çox keyfiyyətlidir. Qadınlar Şurasının İdarə Heyətinin üzvləri sırasında elm xadimləri yer alır. Bundan başqa, təşkilatımızın sıralarında həkimlər, müəllimlər, digər peşə sahiblərindən olan ziyalılar təmsil olunurlar. Buna paralel olaraq hər il çoxsaylı vətənpərvər və ziyalı qadınlarımız mütəmadi olaraq YAP Qadınlar Şurasının sıralarına daxil olurlar.

***- Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP-ın Sədr müavini Mehriban xanım Əliyevanın fəaliyyəti qadınların cəmiyyətdə mövqeyinin möhkəmlənməsinə və rolunun artmasında nə dərəcədə rol oynayır?***

- Ötən dövr ərzində həyata keçirilən dövlət qadınlar siyasətinin ən mühüm və uğurlu nəticələrindən biri Mehriban xanım Əliyevanın şəxsində Azərbaycan qadınının layiq olduğu ən yüksək ictimai məqama, mənəvi zirvəyə yüksəlməsidir. Biz bu yüksəlişi uzun illər müdrik və çoxsahəli fəaliyyətin ədalətli nəticəsi kimi dəyərləndiririk. Azərbaycanın Birinci vitse-prezidenti, YAP-ın Sədr müavini, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Azərbaycan qadınları üçün müasir dünyamızda bəşəriyyətə faydalı olmağın yeni meyarlarını müəyyən edən parlaq örnəkdir. Onun təşəbbüsü ilə Azərbaycan mədəniyyəti incilərinin, səsimizin, sözümüzün bütün dünyada təbliği, Azərbaycan dövlətinin dəstəyi ilə ölkə daxilində və ölkədən xaricdə keçirilən tədbirlər, reallaşdırılan unikal layihələr xüsusi əhəmiyyət daşıyır. Bu gün adı cəmiyyətimizdə xeyirxahlıq, insanlara kömək, nəciblik, alicənablıq məzmunu ilə assosiasiya olunan Mehriban xanım Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyətinin Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında aktiv iştiraka marağının artması, cəmiyyətimizdə qadın fəallığı ənənələrinin gücləndirilməsində rolu böyükdür. Mehriban xanım Əliyevanın Azərbaycan dövləti və xalqı, eləcə də qadın siyasətinin inkişafında tarixi xidmətləri misilsizdir. O, öz ali məramlara söykənən fəaliyyəti ilə Azərbaycan cəmiyyətində novatordur.

Azərbaycan xalqının yüksək milli-mənəvi dəyərləri ilə qürur duyan və özünün şəxsi nümunəsində bu dəyərləri dünyaya layiqincə təqdim edən Mehriban xanım Əliyevanın timsalında biz həmçinin qayğıkeş bir ana obrazını görürük. Mehriban xanım Əliyeva həyatının əlamətdar günlərini, milli bayramlarımızı bir qayda olaraq valideyn himayəsindən məhrum qalmış və yaxud fiziki qüsurlu uşaqlarla keçirir. Bununla Mehriban xanım Əliyeva sanki belə bir mesaj verir ki, uşaqları, ələlxüsus da valideyn himayəsindən məhrum qalmış və yaxud fiziki qüsurlu uşaqları taleyin ümidinə buraxmayın, qoy onlar sizlərin mərhəməti sayəsində ana qəlbinin hərarətini, istiliyini hiss etsinlər, özlərini tənha saymasınlar. Bütövlükdə, Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında əvəzsiz rol oynayır.

***- YAP Qadınlar Şurası partiyanın yaradılmasının 25-ci ildönümü ilə bağlı hansı tədbirlər keçirməkdədir?***

- YAP Qadınlar Şurası partiyanın yaranmasının 25-ci ildönümü münasibətilə tədbirlər planı hazırlayıb və müəyyən olunmuş plana əsasən müxtəlif tədbirlər keçirməkdədir. Ümumxalq partiyası olan YAP-ın sıralarında cəmləşən qadınlar bu tədbirlərdə olduqca fəal iştirak edirlər. Tədbirlərdə partiyamızın ötən 25 ildə keçdiyi zəngin və şərəfli inkişaf yoluna nəzər salınır, YAP-ın yaranmasını zəruri edən amillərə və partiyanın fəaliyyətinin başlıca istiqamətlərinə diqqət yetirilir. Bu tədbirlər həm də partiyamıza olan rəğbət və hörməti, inam və etimadı əyani şəkildə əks etdirir. Bütün tədbirlərdə YAP-ın Azərbaycanın inkişafına layiqli töhfələr verməsi, partiyamızın ölkəmizin müstəqillik tarixində misilsiz rol oynaması, Azərbaycanın gələcək siyasi taleyinin məhz Yeni Azərbaycan Partiyası ilə bağlı olması əminliklə vurğulanır. Bütün bunların ölkəmizin gənclərinə örnək, nümunə olduğunu düşünürəm.

***- Nurlana xanım, siz həmçinin, təcrübəli pedaqoq kimi ömrünüzü gənclərin təlim-tərbiyəsinə, təhsilinə həsr etmisiniz. Bu gün gənclərimiz cəmiyyət həyatının müxtəlif sahələrində aktiv fəaliyyət göstərir, ölkəmizi beynəlxalq miqyasda uğurla təmsil edirlər. Bu baxımdan, Yeni Azərbaycan Partiyasının sıralarında cəmləşən gənclərin fəaliyyətini necə qiymətləndirirsiniz?***

- Bu gün hər bir cəmiyyətin ən dinamik qüvvəsi qismində məhz gənclər çıxış edirlər. Buna görə də gənclərin doğru yönləndirilməsi, onların fəaliyyətinə əlverişli şərait yaradılması, gənclərdə milli-mənəvi dəyərlərin və vətənpərvərlik hissinin formalaşdırılması mühüm zərurət kimi çıxış edir. Digər tərəfdən, gəncliyin inkişafı, onların zərərli təsirlərdən qorunması hər zaman diqqət mərkəzində olan məsələlərdəndir. Əlbəttə, burada əsas amil gənclərin düzgün istiqamətləndirilməsi, milli maraqlar və xalqımızın ali dəyərləri əsasında onların mütərəqqi qüvvəyə çevrilməsini təmin etməkdir. Bununla yanaşı, məktəblər və universitetlər yeniyetmə və gənclərin həm düzgün tərbiyə olunmasında, həm də şəxsiyyət kimi formalaşmasında mühüm rola malikdirlər. Xüsusilə, universitetlər gənclərin peşəkar kadr kimi yetişməsində əhəmiyyətli rol oynamaqla yanaşı, həm də cəmiyyətə, dövlətə faydalı kamil vətəndaş kimi formalaşmasında böyük məsuliyyət daşıyırlar.

Təsadüfi deyil ki, mütərəqqi yola, aydın inkişaf modelinə sahib olan dövlətlər gənclərin potensialından cəmiyyətin və dövlətin tərəqqisi naminə səmərəli şəkildə istifadə edirlər. Azərbaycan da belə ölkələr sırasında yer alır.

Azərbaycanda müasir çağırışlara müvafiq şəkildə mütərəqqi gənclər siyasəti həyata keçirilir. Digər tərəfdən, yeniyetmələrin və gənclərin zərərli təsirlərdən qorunması, onlarda vətənpərvərlik hissinin gücləndirilməsi istiqamətində keçirilən tədbirlər müxtəlif layihələr çərçivəsində davam etdirilir. Bu gün ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərinin dərindən öyrənilməsi məqsədilə mühüm layihələr həyata keçirilir və səmərəli nəticələr əldə olunur.

Təsadüfi deyil ki, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət Azərbaycanda sağlam təfəkkürlü, milli-mənəvi dəyərləri mənimsəmiş, Vətəninə, xalqına bağlı, sədaqətli gənclər ordusunun yetişməsini təmin edib. Azərbaycan gəncliyi mütərəqqi dəyərləri mənimsəyib, milli maraqlara, həmçinin milli-mədəni dəyərlərə uyğun möhkəm əqidəyə sahibdir. Biz bunun örnəyini bir çox nümunələrin timsalında göstərə bilərik. Heç uzağa getməyək, aprel döyüşləri zamanı Azərbaycan gəncliyinin nümayəndələri böyük cəsarət və rəşadət nümunəsi ortaya qoydular. Azərbaycan gəncliyinin yüksək vətənpərvərlik ruhu mənfur qonşularımıza, həmçinin bütün dünyaya bir daha bəlli oldu. Əlbəttə, bu nümunələrin sayını istənilən qədər artırmaq olar, amma təkcə bu örnək bütün deyilənləri sübuta yetirir.

Azərbaycan cəmiyyətinin hər bir təbəqəsindən olan insanları öz sıralarında birləşdirən Yeni Azərbaycan Partiyası da gəncliyin inkişafına xüsusi həssaslıqla yanaşır, bu istiqamətdə həyata keçirilən layihələr və tədbirlər dövlət gənclər siyasətinə mühüm dəstək kimi çıxış edir. YAP-ın çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri gənc nəslə diqqət və qayğının artırılması, respublikamızın ictimai-siyasi həyatında onların fəal iştirakının təmin olunması, yeni nəslin gələcəyin layiqli vətəndaşları kimi formalaşması məqsədilə mühüm tədbirlərin həyata keçirilməsidir. Bütün bunların məntiqi nəticəsidir ki, gənclərimiz Yeni Azərbaycan Partiyasına inamla, məhəbbətlə üz tuturlar. Azərbaycanın milli-mənəvi dəyərlərini mənimsəmiş, mütərəqqi baxışlara və zəngin dünyagörüşünə malik dəyərli gənclərimizin əhəmiyyətli hissəsi Yeni Azərbaycan Partiyasının sıralarında cəmləşib.

# Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə “Hərəyə bir ağac əkək” kampaniyasına start verilib

***Noyabrın 21-də ölkəmizin ictimai-siyasi həyatında xüsusi çəkiyə malik, bütövlükdə Azərbaycanın bugünkü möhtəşəm uğurlarında müqayisəsiz və əvəzsiz xidmətləri olan Yeni Azərbaycan Partiyasının yaranmasının 25 ili tamam olur. Partiyanın 25 illik yubileyi ilə əlaqədar müxtəlif tədbirlər və kampaniyalar həyata keçirilir.***



Noyabrın 11-də YAP-ın yaranmasının 25 illik yubileyi ilə əlaqədar nəzərdə tutulmuş möhtəşəm tədbir olan “Hərəyə bir ağac əkək” kampaniyasına start verilib. Kampaniyanın ilk günündə yüzlərlə YAP-çının iştirakı ilə 10 hektar ərazidə təxminən 10 min ağac əkilib. Xəzər rayonu ərazisində, Türkan-Qala şossesinin ətrafındakı ərazidə həyata keçirilən yaşıllaşdırma kampaniyasında YAP İdarə Heyətinin, Siyasi Şurasının üzvləri, Milli Məclisin deputatları, Qadınlar Şurasının və Gənclər Birliyinin üzvləri, eləcə də partiyanın Bakı şəhəri üzrə rayon təşkilatlarının fəalları iştirak ediblər.

Kampaniya ilə bağlı Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, Azərbaycanın tarixində əhəmiyyətli rol oynayan, ictimai-siyasi həyatımızda çox mühüm missiyanı yerinə yetirən YAP-ın yubileyləri müxtəlif kampaniyalarla qeyd olunub: “Partyanın 25 illik yubileyi ilə əlaqədar ənənəmizə sadiq qalaraq ya-









# Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə "Hərəyə bir ağac əkək" kampaniyasına start verilib









şıllaşdırma kampaniyasını davam etdiririk. YAP-ın sıralarında 700 min insan birləşir. Bu kampaniyada da 700 min ağac əkmək niyyətini ortaya qoymuşuq. Partiyamızın hər bir üzvü bir ağac əksin deyə kampaniyamızı bu şüar altında reallaşdırırıq. Kampaniyaya ağacəkmə mövsümü başlayandan start verilir və bu mövsümün sonuna qədər davam edərək bütün bölgələri əhatə edəcək. Yaşıllaşdırmanın, ağacəkmənin ölkə həyatı üçün nə qədər əhəmiyyətli hadisə olduğunu izah etməyə ehtiyac yoxdur".

YAP Sədrinin müavini bildirib ki, Azərbaycanın paytaxtı və regionları son illərdə çox ciddi şəkildə dəyişib, müasirləşib. Eyni zamanda, ölkədə ekologiyanın yaxşılaşdırılması istiqamətində böyük işlər görülür, yaşıllaşdırma tədbirləri həyata keçirilir və YAP-ın bu kampaniyası da ölkəmizdə reallaşdırılan yaşıllaşdırma, ağacəkmə kampaniyasının bir tərkib hissəsidir. "Bu, həmçinin təmiz hava, sağlamlıq deməkdir. Muasir dünyada təmiz havanın nə qədər böyük aktuallıq kəsb etdiyi hər kəsə məlumdur. Bilirsiniz ki, YAP həmişə yaradıcı, qurucu partiya olub. Bu partiyanı yaradan Ümummilli lider Heydər Əliyev həmişə quruculuq missiyasını yerinə yetirib, Onun yaratdığı partiya da bu missiyaya sədaqətlə xidmət edir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən bütün quruculuq işlərində YAP yaxından iştirak edir. Hesab edirəm ki, 700 min ağacı əkməklə biz Bakının, ölkəmizin bütün bölgələrinin ekologiyasının yaxşılaşmasına öz töhvəmizi vermiş olacağıq. Bir neçə il keçəcək, bu ağaclar böyüyəcək və bu ərazi gözəl yaşıllıq zolağına çevriləcək. Eyni zamanda, Bakının havası daha da təmiz olacaq"-deyə Əli Əhmədov vurğulayıb.



Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə layihələndirilən "Hərəyə bir ağac əkək" kampaniyası Azərbaycanın hər bir bölgəsini əhatə etməklə, bütün yaşıllaşdırma mövsümü ərzində, yəni gələn ilin aprel ayına qədər davam edəcək. 700 mindən artıq ağac və bəzək bitkisinin əkilməsini nəzərdə tutan bu möhtəşəm kampaniyanın əsas vəzifəsi ölkədə meşəlik zolağının və yaşıllığın daha da genişləndirilməsi, ekoloji durumun daha da yaxşılaşdırılması məqsədinə xidmət etməklə, eyni zamanda insanların səfərbər edilməsi və həmrəyliyinin yüksəldilməsi anlamına töhfə vermiş olacaq.

## Möhkəm təməllər üzərində qurulan partiya

*YAP Şəmkir rayon təşkilatı partiyanın yaranmasının 25 illik yubileyi ilə bağlı geniş tədbir keçirib*

Şəmkir rayonunda Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə təntənəli tədbir keçirilib. Tədbir iştirakçıları ilk öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər. Tədbirdə YAP-ın yaranmasının 25-ci illik yubileyinə həsr olunmuş film nümayiş etdirilib.






YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev tədbirdə çıxış edərək, YAP-ın Yeni Azərbaycan Partiyasının respublikanın aparıcı siyasi qüvvəsi olduğunu bildirib. F.Vəliyev olduqca çətin şəraitdə yaranmış partiyanın çox qısa müddətdə böyük siyasi qüvvə kimi formalaşmasını, minlərlə vicdanlı və əqidəli insanın onun sıralarında birləşməsini Ulu Öndər Heydər Əliyev fenomeni və dühasının qüdrətindən xəbər verdiyini diqqətə çatdırıb.

Tədbirdə Şəmkir rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov çıxış edərək bildirib ki, tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası 25 il ərzində şərəfli yol keçib: "YAP böyük çətinliklərə sinə gərərək həyata keçirdiyi uğurlu siyasətlə xalqın partiyası imicini qazanıb. Partiyanın qurucusu Ümummilli Lider Heydər Əliyev və Onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində aparılan ardıcıl və köklü islahatlar, yürüdülən daxili və xarici siyasət xalqımızın rifah halının yaxşılaşmasına, dövlətçiliyimizin daha da möhkəmlənməsinə zəmin yaradıb.

YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxışında bildirib ki, YAP-ın qurucusu, Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda, son dərəcə mürəkkəb, ağır bir dövrdə xalqın təkidli tələbi ilə ölkəyə rəhbərlik məsuliyyətini üzərinə götürməsəydi, bugünkü müstəqil, qüdrətli, sürətlə inkişaf edən və regionun lider dövlətinə çevrilən Azərbaycandan danışmaq mümkün olmazdı: "Olduqca çətin bir şəraitdə yaranmış bu partiyanın çox qısa müddətdə əsl siyasi qüvvə kimi formalaşması, minlərlə əqidəli insanın onun sıralarında birləşməsi bu gün bir daha Heydər Əliyev fenomeni və dühasının qüdrətindən xəbər verir". Millət vəkili Sahibə Qafarova bildirib ki, məhz Ulu Öndər Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi və zəngin dövlətçilik təcrübəsi nəticəsində Azərbaycan dövlətçiliyi məhvolma təhlükəsindən xilas olub: "Ulu Öndərin titanik fəaliyyəti nəticəsində, ölkə daxilində ayrı-ayrı siyasi qüvvələrə tabe olan hərbi birləşmələr ləğv edildi, vətəndaş müharibəsi və separatçılığın qarşısı alındı. Bu gün müstəqil Azərbaycan Respublikası və möhkəm özülə söykənən dövlətçiliyimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu gələcəyə doğru addımlayır". Millət vəkili Sona Əliyeva çıxışında qeyd edib ki, YAP zamanın tələbi ilə yaranıb: "Bu gün Ulu Öndərin siyasi kursunun YAP Sədri, Cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində Azərbaycan yeni-yeni uğurlar əldə edir".

Digər çıxış edənlər partiyanın cəmiyyətin inkişafına yönəlmiş çoxsaylı sosial layihələri reallaşdırmasının, gəncləri dövlətçilik və milli maraqlar ətrafında sıx birləşdirməsinin onun tərəfdarlarının sayının artmasına səbəb olduğunu vurğulayıblar.

Tədbirin yekununda rayonun ictimai-siyasi həyatında fərqlənənlərə YAP rayon təşkilatı tərəfindən fəxri fərmanlar və hədiyyələr təqdim edilib.

***Rəfiqə HÜSEYNOVA***

## Azərbaycanın 33 rayon və şəhəri xərclərini öz gəlirləri hesabına təmin edəcək

Azərbaycanın 33 rayon və şəhəri 2018-ci ildə xərclərini öz gəlirləri hesabına təmin edəcək. Bunu Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu, insan hüquqları, gənclər və idman, regional məsələlər və mədəniyyət komitələrinin birgə iclasında büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi zamanı maliyyə nazirinin müavini Azər Bayramov deyib.

Azər Bayramov bildirib ki, 2018-ci ilin dövlət büdcəsinin gəlirlərinin tərkib hissəsi olan yerli gəlirlər 651 milyon manat proqnozlaşdırılır. Bu da cari illə müqayisədə 4 milyon manat çoxdur. Gələn il də rayon və şəhərlərin yerli xərclərinin 424 milyon manat təşkil edəcək ki, bu da cari illə müqayisədə 3 milyon manat çoxdur. 2018-ci ildə xərclərini öz gəlirləri hesabına təmin edəcək 33 rayon və şəhər istisna olmaqla yerdə qalan hissənin yerli xərclərinin tənzimlənməsi üçün dövlət büdcəsindən mərkəzləşdirilmiş xərclər üçün ayrılan maliyyə yardımının yerli xərclərin tərkibində xüsusi çəkisi 10,1 faiz olacaq.

## Masallıda 1000-ə yaxın müxtəlif növ ağac və gül kolları əkilib

*Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibəti ilə Masallı rayonunda ağacəkmə aksiyası keçirilib*



Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində ətraf mühitin mühafizəsinə, ekoloji durumun yaxşılaşdırılmasına, xüsusilə, yaşıllaşdırmaya mühüm önəm verilib, bu məqsədlə geniş və çoxşaxəli proqramlar qəbul olunub və irimiqyaslı tədbirlər həyata keçirilib. Ulu Öndərin müəyyənləşdirdiyi ekoloji siyasət bu gün Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir və öz bəhrəsini verməkdədir.

Dövlət başçısının respublikada ekoloji tarazlığın qorunması ilə bağlı verdiyi müvafiq tapşırıqlara uyğun olaraq, həmçinin, Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə YAP Masallı rayon təşkilatının və Masallı rayon İH-in təşkilatçılığı ilə Viləşçayın sahili ərazisində ağacəkmə aksiyası keçirilib.

Rayonun idarə, müəssisə və təşkilatlarının, ictimaiyyətin nümayəndələrinin, könüllü sakinlərin, həmçinin, gənclərin yüksək fəallıqla qoşulduğu genişmiqyaslı iməcilikdə ətraf ərazi tullantılardan təmizlənib, mövcud olan yaşıllığa aqrotexniki qulluq edilib və ərazidə 1000-ə (bir min) yaxın müxtəlif növ ağac və gül kolları əkilib.

Məqsəd ərazidəki yaşıllıq zolağını genişləndirmək, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə qayğı hissini təbliğ etmək və ümumilikdə, dövlət başçısının rəhbərliyi ilə aparılan ardıcıl islahatlar nəticəsində gündən-günə gözəlləşən Masallının istər Avropa, istərsə də dünyanın ekoloji cəhətdən təmiz olan ən gözəl rayonları sırasında qərarlaşması istiqamətində görülən işlərə dəstək verməkdir.

Ağacəkmə aksiyasında YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev də iştirak edib.

***RÖVŞƏN***

## Balakəndə YAP-ın yaranmasının 25 illik yubileyi ilə bağlı tədbirlər davam edir

Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatı partiyanın yaranmasının 25 illik yubileyi ilə bağlı geniş şura iclası keçirib. Rayon təşkilatının sədri partiyanın yaradılmasından ötən 25 il ərzində keçdiyi şərəfli yoldan danışaraq bildirib ki, Yeni Azərbaycan Partiyası alternativi olmayan siyasi bir təşkilatdır: "Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına bəxş elədiyi müstəqil dövlətin siyasi aparıcı quvvəsi olan Yeni Azərbaycan Partiyası çətin zamanlarda yaranmasına baxmayaraq, öz ətrafına sağlam qüvvələri toplayıb. 1992-ci il noyabr ayının 21-də, Azərbaycanın müxtəlif regionlarından Naxçıvana gəlmiş 550 nəfərdən artıq nümayəndənin iştirak etdiyi təsis konfransında Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsi qəbul edildi. Ümummilli Lider Heydər Əliyev partiyanın Sədri seçildi. Bununla da, Azərbaycanın siyasi həyatına Yeni Azərbaycan Partiyası adında xalqa xidmət etmək məqsədilə əzəmətli bir güc mərkəzi daxil oldu. Həmin tarixi hadisədən dərhal sonra partiyanın təşkilatları yaranmağa başladı".






Tədbirdə Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatının təsisçisi və ilk sədri ağbirçək xanım Tamara Əliyeva rayon təşkilatının yaradılması barəsində öz təəssüratlarını bölüşüb, gənclərə doğru yolda iradəli olmağı və müstəqil Azərbaycan uğrunda daim çalışmağı tövsiyə edib.

Tədbirdə çıxış edən rayon ağsaqqallar şurasının sədri partiya veteranı Rəşid Musayev, rayon təşkilatının qadınlar şurasının sədri Züleyxa Dibirova, partiya veteranı Rəhim Tağıyev, Şəhər-4 ərazi ilk təşkilatının sədri Leyla Rəcəbova və başqaları çıxış edərək, YAP-ın yaranması, onun keçdiyi çətin və şərəfli yol, ölkəmizin ictimai-siyasi həyatında oynadığı rol barədə danışıblar. Çıxışlarda bildirilib ki, 25 ildir ki, Yeni Azərbaycan Partiyası yaşayır, öz sıralarını genişləndirir və müstəqilliyimizlə bərabər addımlayır, dünyanın aparıcı partiyaları ilə geniş siyasi əlaqələr qurur və öz nüfuzu ilə tanınır. YAP Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi altında indiki Azərbaycanı - yeni, müstəqil, günbəgün möhkəmlənən və güclənən Azərbaycanı qurdu.

Tədbirin sonunda YAP sıralarına yeni daxil olmuş bir qrup gənclərə partiyanın üzvlük vəsiqələri təqdim olunub.

***R.KAMALQIZI***

# Yeni Azərbaycan Partiyası ilə daha xoşbəxt və firavan gələcəyə doğru

***Dünyanın keçmiş və müasir tarixinə nəzər saldıqda, şahidi oluruq ki, dövlətlərin müstəqillik əldə etməsində xalqların mübarizəsi ilə yanaşı, mövcud siyasi vəziyyətlərin reallığı da müstəsna rol oynayır. Əldə olunan müstəqilliyin qorunub-saxlanmasında və inkişaf etdirilməsində isə tarixi şəxsiyyətlərə və liderlərə ehtiyac var. Yalnız analitik təfəkkürə malik intellektual və xarizmatik lideri olan xalqlar əldə etdikləri müstəqilliyi qoruyub saxlaya bilirlər. Azərbaycan xalqı dünyanın xoşbəxt xalqlarındandır ki, minlərlə şəhidinin qanı ilə əldə etdiyi müstəqil dövlətinin gələcək taleyinin böyük sual altında olduğu ilk illərdə Ulu Öndər Heydər Əliyev dövlətin və xalqın harayına çatdı. Siyasi və iqtisadi xaosun tüğyan etdiyi 1993-cü ilin iyununda xalqımızın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Respublikasını siyasi iflasdan və iqtisadi tənəzzüldən xilas edə bildi. Böyük dövlətçilik təcrübəsinə malik Ümummilli Lider Heydər Əliyev xalqın birliyinin təmin olunmasını, müstəqilliyin möhkəmləndirilməsini və iqtisadi inkişafı dövlətçilik strategiyasının prioritet istiqaməti olaraq müəyyənləşdirdi. Lakin buna qədər keçiləcək böyük və çətin yol var idi...***



***MUXTAR NAĞIYEV,***
***YAP Səbail rayon təşkilatı sədrinin birinci müavini***

## Ulu Öndər Heydər Əliyev - Yeni Azərbaycan Partiyası ideologiyasının banisi

Hələ ötən əsrin 90-cı illərin əvvəllərində dövlətimiz müstəqilliyə nail olduqdan sonra ölkədə ciddi siyasi böhran yaşanmağa başladı. Bir tərəfdən, hakimiyyətdəki səriştəsiz və siyasi idarəetmədən uzaq olan insanların olması, digər tərəfdən, Ermənistanın ərazilərimizi işğal etmək məqsədilə dövlətimizə qarşı apardığı müharibə ölkədə yeni siyasi qüvvənin yaranmasını qaçılmaz edirdi. Artıq hər bir kəs əmin idi ki, düşmənçilik həddinə qədər qalxmış daxili siyasi problemlərdən və iqtisadi böhrandan Azərbaycanı yalnız yeni siyasi sağlam qüvvə xilas edə bilər. Cəmiyyət bütünlüklə xalqın inamını doğruldacaq, vətəndaş müharibəsinin astanasından vahid həmrəyliyə aparacaq LİDERƏ ehtiyac duyurdu. 1992-ci ilin oktyabr ayında ölkənin bir qrup ziyalısı "SƏS" qəzeti vasitəsi ilə Ulu Öndər Heydər Əliyevə bu məqsədlə müraciət ünvanladılar. Halbuki 1992-ci ildə respublikanın müharibə şəraitində olmasına baxmayaraq, mərkəzi hakimiyyətdə siyasi postlar uğrunda mübarizələr gedirdi. Əlbəttə ki, o vaxt hakimiyyətdə təmsil olunan bu səriştəsiz qüvvələr öz siyasi maraqları naminə imkan verməzdilər ki, xalqı və dövləti böhrandan xilas edəcək yeni siyasi qüvvə meydana gəlsin. Ona görə də, bütün vasitələrlə xalqın tələbindən yaranan yeni siyasi partiyanın yaranmasına maneçilik törədirdilər.

Lakin qətiyyət və mərdlik mücəssəməsi öz sözünü dedi. Ulu Öndər Heydər Əliyevin memarı olduğu Yeni Azərbaycan Partiyasının təsis konfransı cəmiyyətin bütün təbəqələrini təmsil edən 500-dən çox nümayəndənin iştirakı ilə 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirildi və Ulu Öndər yekdilliklə partiyanın Sədri seçildi. Bununla da Azərbaycanın siyasi arenasında onu siyasi xaosdan xilas edəcək, iqtisadi tərəqqiyə yüksəldəcək və cəmiyyəti vahid qüvvə olaraq dövlətçilik prinsipləri ətrafında cəmləyəcək güclü partiya meydana gəldi. Azərbaycanın ağır dövründə xalqın israrlı çağırışları ilə Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyun ayının 9-da Naxçıvandan Bakıya gəldi. Böyük siyasi təcrübəyə malik, Vətənimizin hər bir diyarında sevilən, sonsuz rəğbət bəslənən Ulu Öndər Heydər Əliyev qısa bir zaman kəsiyində vətəndaş müharibəsinin qarşısını ala bildi. 1993-cü ilin iyun ayının 15-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinin (indiki Milli Məclis-müəl.) Sədri seçildi. Bununla da Azərbaycan Respublikasının qızıl dövrü başladı.

## Heydər Əliyev - xalqın Ümummilli Lideri, Azərbaycan Respublikasının Prezidenti

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın israrlı tələbi ilə dövlət rəhbərliyinə qayıdışından sonra ölkənin taleyində ciddi dönüş başlandı. İctimai-siyasi sabitlik bərpa olundu və beynəlxalq siyasi əlaqələrin təməli qoyuldu. Qeyd edim ki, xarici siyasi əlaqələrin yaranmasında Ulu Öndərin parlaq şəxsiyyətinin əvəzsiz rolu danılmazdır. Vaxtilə SSRİ kimi nəhəng bir imperiyanın rəhbər şəxslərindən olmuş Ulu Öndər Heydər Əliyev dünyanın ciddi siyasi qüvvələri tərəfindən kifayət qədər tanınır və həmişə böyük hörmətlə qarşılanırdı. Ulu Öndərin sürətlə başlatdığı islahatlardan biri də Milli Ordunun yenidən formalaşdırılması oldu. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin zabit kontingentinin təkmilləşdirilməsi, gənc kursantların xarici hərbi məktəblərə göndərilməsi və orduya yeni silah-sursatların alınması ilə ölkənin hərbi qüdrətinin inkişafına start verildi. Ulu Öndərin səyləri nəticəsində, bərpa edilmiş diplomatik əlaqələrin nəticəsi olaraq, işğalçı Ermənistanla atəşkəs imzalandı. Əlbəttə, Ulu Öndər çox gözəl dərk edirdi ki, iqtisadi gücə malik olmayan dövlət ərazi bütövlüyünü bərpa edə bilməz. Ona görə də, 1994-cü ildə Onun dövlətçilik əsərlərindən biri olan "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilə bir vaxtlar xaosun və səfalətin tüğyan etdiyi Azərbaycan Respublikasının əbədi taleyini dəyişdi və onu dünyada söz sahibi etdi. Ulu Öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycanda dövlətçilik ideologiyasının əsası qoyuldu. Ulu Öndər tərəfindən böyük məharətlə aparılan iqtisadi- siyasi islahatlar ölkə vətəndaşlarının həyatında müsbət dönüş yaratdı. Azərbaycanın beynəlxalq diplomatik əlaqələri ilə yanaşı, lobbi təşkilatları da yaradıldı. Dünyanın aparıcı nəhəng şirkətləri ölkənin iqtisadiyyatına əsaslı formada sərmayə qoydular. Dövlət sərhədlərinin bərpasına və ciddi formada qorunmasına başlanıldı. Bakı- Tbilisi- Ceyhan neft kəmərinin təməli qoyuldu. Ölkənin hər bir yerində torpaqların özəlləşdirilməsi həyata keçirildi. Ulu Öndərin Azərbaycan Respublikasına rəhbərlik etdiyi ikinci hakimiyyəti dövründə dövlətin bütün sahələri tam olaraq inkişafa qədəm qoydu.

## İlham Əliyev - Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı

Ulu Öndər Heydər Əliyevin vəfatından sonra böyük səs çoxluğu ilə Respublika Prezidenti seçilən İlham Əliyev Cənabları dövlətin iqtisadi və siyasi qüdrətini daha da artırdı. O, gənc olmasına baxmayaraq, müdrik və məqsədyönlü siyasi qərarları ilə Azərbaycanı regionun lider dövlətinə çevirməyi bacardı. Azərbaycan dünyada söz sahibinə çevrilə bildi. Bu gün regionda heç bir proyekt Azərbaycan dövlətinin iştirakı olmadan həyata keçirilmir. Xüsusilə, Azərbaycanın reallaşdırdığı nəhəng layihələr sırasına əlavə edilən Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu, eləcə də, TAP, TANAP və s. qlobal layihələrin gerçəkləşdirilməsi də bu faktoru ehtiva edir.

Ümumiyyətlə, Prezident İlham Əliyev Cənablarının respublikaya rəhbərlik etdiyi dövrdən başlayaraq, dövlətin hərbi potensialı daha da inkişaf etdirildi. Bu gün Azərbaycan Qafqazın ən qüdrətli ordusuna malik olmaqla yanaşı, həm də hərbi istehsala malik dövlətdir. Respublika Prezidenti İlham Əliyev Cənablarının təşəbbüsü və qətiyyəti ilə yaradılan hərbi sənaye komplekslərimizdə istehsal olunan silah-sursatlar silahlı qüvvələrimizin istifadəsinə verilməklə bərabər, həm də dünya bazarlarına çıxarılır. Son illər ölkədə idmanın inkişafı, səhiyyə və təhsilə aid yeni komplekslərin tikilməsi, təmir olunması, müasir standartlara cavab verən zavod- fabriklərin istifadəyə verilməsi Respublika Prezidenti İlham Əliyev Cənablarının apardığı məqsədyönlü siyasətin bariz nümunəsidir. Bütün bunlarla yanaşı, ölkə başçımız Yeni Azərbaycan Partiyasının Sədri olmaqla, Azərbaycanda həyata keçirilən işlərdə partiyamızın da adını həkk edir. Çünki YAP xalqın partiyası olmaqla, dövlətçiliyimizin möhkəmləndirilməsində müstəsna rol oynamaqdadır.

Əlbəttə ki, ölkəmizdə sosial layihələrin həyata keçirilməsində Yeni Azərbaycan Partiyasının Sədr müavini, Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da əvəzsiz xidmətləri vardır. Onun, eləcə də, fondun vitse- prezidenti Leyla Əliyevanın Azərbaycan mədəniyyətinin təbliği istiqamətində dünyada gördükləri işlərin nəticəsi olaraq, bu gün Azərbaycan iqtisadi və siyasi qüdrətindən əlavə olaraq, mədəni səviyyəsi ilə də dünyanın marağını cəlb etməkdədir. Musiqimizi, xüsusən, muğamı dünya xalqlarına tanıtmaqla yanaşı, Heydər Əliyev Fondu mədəniyyətimizin digər sahələrinin inkişafına da töhfə verməkdədir.

## Yeni Azərbaycan Partiyası və müasir Azərbaycan Respublikası

Ulu Öndər Heydər Əliyevin memarı olduğu yeni Azərbaycan Partiyası bu gün də xalqın etimad göstərdiyi və güvəndiyi partiyadır. Məhz bunun bariz nümunəsidir ki, bu gün YAP-ın 700 min üzvü var. Respublika Prezidenti İlham Əliyev Cənablarının Sədrlik etdiyi Yeni Azərbaycan Partiyası beynəlxalq münasibətlərə də xüsusi önəm verir. Örnək olaraq, Yeni Azərbaycan Partiyasının 2011-ci ildə ev sahibliyi etdiyi "Modernləşmə strategiyası: yeni iqtisadi və sosial çağırışlar" adlı beynəlxalq konfransını və 2012-ci ildə Bakıda Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Daimi Komitəsinin 18-ci iclasını göstərmək olar.

Partiyamızın "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır!"- şüarı sıralarımızdakı yüz minlərlə mətin və mübariz insanların gələcəyə ünvanlanmış vətənpərvərlik çağırışıdır. Biz yüz minlərə çevrildiyimiz kimi milyonlara çevriləcək və Möhtərəm Prezidentimiz İlham Əliyev Cənablarının rəhbərliyi ilə Azərbaycanımızı xoşbəxt gələcəyə aparacağıq!

## *İrandakı zəlzələdə ölənlərin sayı 350 nəfərə çatıb*



İran-İraq sərhədində baş verən zəlzələ nəticəsində ölənlərin sayı 350, yaralıların sayı isə 3950 nəfərə çatıb. Bu barədə SİA "Tass" agentliyinə istinadən xəbər verir. Qeyd edək ki, bundan əvvəl İranın Təbii Fəlakətlərə qarşı Mübarizə Təşkilatı 328 nəfərin öldüyü, 2530 şəxsin isə yaralandığını açıqlamışdı. Qeyd edək ki, dağıdıcı zəlzələ ötən gün axşam saatlarında baş verib. Avropa-Aralıq dənizi Seysmoloji Mərkəzinin məlumatlarına görə, sərhəddə bir-birinin ardınca 7.2 və 7.3 bal gücündə zəlzələ qeydə alınıb. Daha sonra 4.9 bal gücündə daha bir zəlzələ baş verib. Ümumilikdə gecə müddətində yeraltı təkanlar davamlı olub. İndiyədək 20 aftaşok qeydə alınıb. Zəlzələ 10 kilometr dərinliyində baş verib. Hadisə nəticəsində İraqda ölənlərin sayı isə 6-ya çatıb.

# Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilib

Tədbir iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin adını daşıdığı parkda Onun abidəsi önünə gül dəstələri düzüblər. Tədbiri giriş sözü ilə Ağstafa rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev açaraq, qeyd edib ki, bu gün hər bir partiya üzvü YAP-ın yaranmasının 25 illik yubileyini qeyd edir: "Bu kürsüdən partiyamızın bütün üzvlərini bu gözəl bayram münasibətilə ürəkdən təbrik edirəm, partiyanın hər bir üzvünə can sağlığı və yeni-yeni uğurlar arzulayıram. İyirmi beş il əvvəl -1992-ci il noyabrın 21-də gənc respublikamızda çox əlamətdar hadisə baş verib - Ulu Öndər Heydər Əliyevin rəhbərliyi və Sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilib. Bu, doğrudan da, tarixi hadisə idi. Deyə bilərəm ki, gənc dövlətimiz üçün dönüş nöqtəsi idi.Çünki müstəqilliyimizin ilk ayları və ilk illəri hamımızın yaxşı xatirindədir. Çox ağır və faciəvi illər idi. O vaxtkı iqtidarın müstəqilliyini qoruyub- saxlamaq üçün gücü çatmırdı. Eyni zamanda, biz müharibə şəraitində yaşayırdıq və cəbhədə hərbi uğursuzluqlar, əlbəttə ki, cəmiyyətimizi böyük dərəcədə sarsıtmışdı. 1992-ci ilin mayında Şuşa və Laçının işğala məruz qalması, əlbəttə ki, çox böyük faciə idi. Ancaq 1992-ci ilin ortalarında hakimiyyətə gəlmiş yeni iqtidar ölkəmizi daha da bərbad vəziyyətə qoymuşdu. O vaxtkı iqtidarın bacarıqsızlığı, peşəkarsızlığı, xəyanəti nəticəsində, demək olar ki, müstəqilliyimiz əldən gedirdi. Ölkədə gedən xoşagəlməz proseslər, böhran, iqtisadi tənəzzül və siyasi qarşıdurma müstəqilliyimizə böyük zərbələr vurmuşdu. Belə bir şəraitdə cəmiyyətimizin parlaq simaları, ziyalılar və cəmiyyətimizdə böyük hörmətə malik olan insanlar Ulu Öndər Heydər Əliyevin ətrafında birləşərək, Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərara gəldilər". "Qısa müddət ərzində Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilib"- deyə qeyd edən natiq vurğulayıb ki, yarandığı dan bu günə qədər partiya çox böyük, şərəfli və uğurlu yol keçib.






Tədbirdə YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov çıxış edərək, vurğulayıb ki, Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi.

Sonra tədbirdə Ağstafa şəhər Musiqi Mərkəzinin hazırladığı konsert proqramı təqdim edilib.

Tədbirdə bir qrup partiya fəallarına və veteranlarına qiymətli hədiyyələr və fəxri fərmanlar təqdim edilib.

**R.RƏSULOV**

# Azərbaycanın mövqeyi məlumdur

*<u>Arzu Nağıyev:</u> "Azərbaycanın ərazi bütövlüyü birinci şərt kimi qoyulur və bundan sonra mərhələli şəkildə danışıqlar davam etdirlə bilər "*




Müsahibimiz politoloq Arzu Nağıyevdir

***- Arzu müəllim, Rusiya xarici işlər naziri Sergey Lavrovun vasitəçiliyi ilə Ermənistan - Azərbaycan xarici işlər nazirlərinin növbəti görüşü planlaşdırılır. Bu görüşün əvvəlkilərdən fərqlənəcəyini demək olarmı?***

- Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşləri, mütəmadi olaraq keçirilir. Azərbaycanın mövqeyi məlumdur və Elmar Məmmədyarov öz bəyanatlarında dəfələrlə bunu açıqlayıb. Yeni Azərbaycanın ərazi bütövlüyü birinci şərt kimi qoyulur və bundan sonra mərhələli şəkildə danışıqlar davam etdirlə bilər. Təəssüf ki, Ermənistan tərəfi bunun əksinə olaraq, status-kvonu saxlamaq məqsədilə müxtəlif bəyanatlarla çıxış edir. Zənnimcə, növbəti görüşdə də belə olacaq. Baxmayaraq ki, "Lavrov" planı deyilən və sona qədər açıqlanmayan sənədin olması haqqında çox danışılır və əsasən, Rusiya öz nüfuzunu bərpa etmək üçün bu addımları atır.

***- Son vaxtlar münaqişənin həllində daha çox təşəbbüskar rolunda Rusiya çıxış edir. Sizcə, bu, nə ilə bağlıdır?***

- Məlumdur ki, Dağlıq Qarabağ münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri, məhz Rusiyadır və bu münaqişənin yaranmasının da, həllinin də iştirakçısı kimi açar fiqurdur. Regional baxımdan da digər həmsədr dövlətlərdən daha çox maraqlı olmalı bir tərəf kimi Rusiya bu addımları atmalıdır. Hətta deyərdim ki, Qərbin də tələbi bundan ibarətdir. Rusiyanın gərginlik ocaqlarının söndürülməsində istənilən müsbət addımı onun beynəlxalq imicində ancaq müsbət bir amili kimi qeyd edilə bilər.

***- Sizcə, Sarkisyanın güzəştlərdən danışmasının arxasında beynəlxalq təzyiqlərin, yoxsa daxildə Ermənistan prezidentinə Sarkisyana olan inamsızlığın dayandığını demək olarmı?***

- Hazırda Sarkisyanın vəziyyəti ürəkaçan deyil. Prezidentlik müddəti artıq başa çatır. Tək Qarabağ kartı ilə oynamaq mümkün olmur. Çünki siyasi vəziyyət həddən artıq gərginləşib, demoqrafik problemlər pik həddinə çatır, əsgər anaları mitinqlər keçirir, iqtisadiyyat iflasa uğrayır. Bu fonda hakimiyyəti saxlamaq və onu tək Dağlıq Qarabağ üzərindən qorumaq mümkün olmayacaq, bunu Sarkisyan və onun komandası anlayır, Rusiya da sona qədər onu dəstəkləməyə söz verə bilmir, çünki Qərb tərəfdarları və lobbi qoyduğu vəsaitin aqibətini sormaqdadır. Belə bir şəraitdə mütləq bir addım atılmalıdır ki, Sarkisyana qarşı yaranmış inamsızlığın qarşısı müəyyən qədər alınsın...

**GÜLYANƏ**

# Sosial evlər əlverişli şərtlərlə təqdim ediləcək

## *Sosial evlərin verilməsi sosial rifahın gücləndirilməsi və istiqrarlı bir əhvali-ruhiyyənin yaranması deməkdir*

***2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda ölkə başçısı tərəfindən sosial mənzil tikintisinin vacibliyi vurğulandıqdan dərhal sonra regionlarda işsizliyin azaldılması və maddi imkanları aşağı olan aztəminatlı əhalinin mənzil probleminin həlli məqsədilə bütün şəhərlərdə, rayon mərkəzlərində inşasına başlanılmış sosial mənzillərin tikintisi davam edir və tezliklə istifadəyə veriləcəyi gözlənilir.***



Bu yeni bir təşəbbüs olsa da, artıq bir sıra ölkələrdə bu təcrübədən geniş istifadə olunur. Almaniya və Türkiyə təcrübəsindən istifadə olunmaqla, Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsində məsələ dəfələrlə müzakirə edilərək reallaşdırılan sosial evlər əhali üçün həddindən artıq əlverişli şərtlərlə təqdim ediləcək və 25-30 ildən sonra isə mənzil sahiblərinin tam mülkiyyətinə veriləcək. Mənzillərin dövlət tərəfindən ayrılmış ərazilərdə inşa edilməsinə, dövlət tərəfindən tikilməsinə görə bir sıra qeyri-rəsmi xərclərin, məsrəflərin də aşağı olması səbəbindən sosial mənzillər ucuz başa gəlir və onların vətəndaşlara aşağı qiymətlərlə təqdim edilməsi də ciddi bir problem yaratmayacaq.

Türkiyə və Almaniyanın təcrübəsi göstərir ki, dövlət tərəfindən vətəndaşa kreditə verilən sosial mənzillərdə faiz dərəcəsi sıfıra bərabər olur. Bu ölkələrdə banklar yalnız ödənişi həyata keçirdiyinə görə, xidmət haqqı alırlar. Bu isə, təbii ki, illik faiz dərəcəsi 8%-ə bərabər olan ipoteka krediti ilə müqayisədə belə aylıq ödənişləri xeyli aşağı salmağa imkan verir. Buna görə də, hazırda əmək haqları ipoteka krediti ilə mənzil almağa imkan verməyən vətəndaşlar rahatlıqla sosial mənzil ala biləcəklər. Təcrübəyə görə, sosial mənzil almaq istəyən ailələrin aylıq gəlirlərinin yuxarı həddinə limit qoyulur və mənzili olan ailələr də sosial mənzil ala bilməzlər. Şəhid ailələri, dul qadınlar və yetimlər xüsusi güzəştlərə malikdirlər. Təbii ki, bu şərtlər daxilində sosial evlərin verilməsi Azərbaycanda sosial rifahın gücləndirilməsi, ölkədə daha istiqrarlı bir əhvali-ruhiyyənin yaranması deməkdir.

Sosial evlər sosial həmrəyliyin gücləndirilməsində önəmli rol oynamaqla yanaşı, insanların universal hüququ kimi dünyanın 100-dən çox konstitusiyasına daxildir. Avropa İttifaqının insanlara mənzil yardımı məsələsi Lissabon Sammitindən sonra hüqüqi qüvvəyə minərək Avropa İttifaqı siyasəti səviyyəsində müzakirəyə çıxarılıb. Yaxşı keyfiyyətli və münasib qiymətli mənzillə təmin olunmaq Aİ-nin üzv ölkələri tərəfindən insanların əsas hüquq və ehtiyacını ödəyən bir hal kimi qəbul olunur.

Azərbaycanda vətəndaşların əlverişli şərtlərlə əldə edəcəyi sosial evlərin yerləşməsi üçün ərazinin seçilməsi zamanı da insanların rahat yaşayışı üçün zəruri olan bütün amillər nəzərə alınıb. İnşa olunan binalar yaşayış üçün zəruri olan rabitə və kommunal xidmətləri ilə tam təmin olunur, insanlar üçün hər cür şərait yaradılır və mənzillərin layihələndirilməsi zamanı bütün standartlar nəzərə alınıb.

**İqtisadçı Vüqar Bayramov bizimlə söhbətində sosial evlərin əhəmiyyətindən danışdı:**

- Sosial evlər Azərbaycanda həyata keçirilən sosial siyasət elementi olaraq təhlil olunur. Sosial evlər layihəsində də, eyni zamanda, sosial evlər təşəbbüsünün reallaşmasında da məqsəd vətəndaşların mənzillə təmin olunmasını, təminatını yaxşılaşdırmasını və onların mənzillə təminatını həyata keçirməkdən ibarətdir. Sosial evlərin reallaşması birbaşa Azərbaycan Prezidentinin siyasi iradəsi əsasında reallaşdırıldı. Baxmayaraq ki, Azərbaycan post-neft dövrünə qədəm qoydu, neftin qiyməti azaldı, amma buna rəğmən, Azərbaycan postneft dövründə bir sıra layihələri, eyni zamanda, sosial evlərin inşasını həyata keçirdi. Sosial evlər sosial ipoteka hüququ olan vətəndaşlara təklif edilir və hal-hazırda Yasamalda təxminən 2 min mənzilli sosial evlərin inşası həyata keçirildi. Sosial evlərdən yaşı 35-dək olan gənc ailələr, o cümlədən, şəhid ailəsinin, milli qəhrəman ailələrinin üzvü, məcburi köçkün, ən azı 3 il dövlət qulluğunda çalışan vətəndaşlarımız, ən azı 5 il ümumtəhsil məktəblərində çalışan müəllimlər, elmlər, fəlsəfə doktorları və idman sahəsində nailiyyəti olan vətəndaşlarımız istifadə edə bilərlər. Eyni zamanda, yaş limitindən asılı olmayaraq elmlər doktorları, ən azı 15 il dövlət qulluğunda işləyən vətəndaşlarımız, 3 il xidmətdə olan hərbiçilər, ən azı 3 il daxili işlər orqanlarında çalışan xüsusi rütbəli şəxslər, elmi vəzifə daşıyan elmi işçilər yaşınadan asılı olmayaraq sosial evlərdən istifadə etmək imkanına malkdir. Bu baxımdan, sosial evlər kifayət qədər böyük bir kateqoriyanı əhatə edir. Artıq sosial evlərlə bağlı qeydiyyat başlayıb. Təxminən 7 mindən artıq adam sosial evlərlə bağlı qeydiyyatdan keçib. Sosial evlər 1, 2, 3 otaqlı formasında təqdim ediləcək və 1 otaqlı mənzillər üçün aylıq ödəniş 150 manat, 2 otaqlı mənzillər üçün aylıq ödəniş 190 manat, 3 otaqlı mənzillər üçün isə aylıq ödəniş intəxminən 240 manat olacağı gözlənilir. Sosial evlər tam təmir edilmiş və eyni zamanda, mətbəx mebeli ilə təmin olunaraq veriləcək. Nəzərə alsaq ki, bu, bir şəhərcik olacaq, eyni zamanda sosial evlər şəhərciyinin olması həm də imkan verəcək ki, məhz sosial evlərdən istifadə edən vətəndaşlarımız həm də iş yerlərinə yaxınlıq, məktəb və digər sosial obyektlərdən istifadə etmək imkanı qazansınlar. Bu baxımdan, sosial evlər güzəştli mənzil təklifi olmaqla yanaşı, həm də sosial evlərdən istifadə edən vətəndaşlarımızın infrastruktura, iş yerinə, eləcə də, müxtəlif sosial xidmət imkanlarının yaxşılaşdırılmasına imkan yaradacaq.

**İnam HACIYEV**

SİYASİ RAKURS

# Qardaş Türkiyə düşmənin “dəyirmanını” susuz qoydu!

*İşğal altında olan ərazilərimizə səfər edən şəxslər kimliklərindən, hansı ölkənin vətəndaşları olmasından asılı olmayaraq, qanunun sərt tərəfi ilə üzləşəcək*

***Hələ bu ilin sentyabrında Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ ərazilərinə qanunsuz səfər edən 4 nəfər Türkiyə vətəndaşlarına qarşı Türkiyədə cinayət işinin qaldırılması bəlli olub. Artıq bu barədə qərar verilib. Əldə etdiyimiz məlumata görə, Türkiyə vətəndaşları Ufuk Uras, Əli Bayramoğlu, Səid Çəkinoğlu və Erol Katırçıoğlunun işğalçı Ermənistanın nəzarəti altında olan Azərbaycan ərazilərinə qeyri-qanuni səfər etdiyinə görə cəzalandırılması istiqamətində qardaş ölkədə ilkin hüquqi addımlar atılıb və onların cəzalandırılması gözlənilir.***



## Qardaş Türkiyə Azərbaycanın Kəlbəcər rayonu işğal olunandan sonrakı 24 il ərzində Ermənistanın üzünə sərhədlərini bağlayıb

Bu şəxslərin Azərbaycanın ərazi bütövlüyünə qarşı hörmətsizlikləri, ölkəmizdə olduğu kimi, qardaş Türkiyədə də kəskin etirazlara səbəb olub və müxtəlif ictimai- siyasi xadimlər bu addımı lənətləyərək, həmin şəxslərin cəzalandırılmasının vacibliyini bildiriblər. Belə ki, Türkiyə-Azərbaycan qardaşlıq münasibətlərinə zidd olan addımına qiymət verilməsini zəruri sayan insanlar, məhz bu tələbi irəli sürüblər. Beləliklə, 4 xəyanətkarın cəzalandırılmaları üçün edilən etirazlar qardaş Türkiyənin hüquq-mühafizə orqanları və məhkəməsi tərəfindən nəzərə alındı. Çünki bu qərar verilməsəydi, Azərbaycan öz müstəqilliyini elan edəndən hazırkı dövrə qədər işğal faktı ilə barışmayan Türkiyənin həmin addımı anlaşılan olmazdı. Eləcə də, tarixi həqiqətdir ki, qardaş Türkiyə Azərbaycanın Kəlbəcər rayonu işğal olunandan sonrakı 24 il ərzində Ermənistanı üzünə sərhədlərini bağlayıb. Məhz bu baxımdan, 4 nəfər Türkiyə vətəndaşının Ermənistanın yolu ilə Qarabağın işğal olunmuş ərazilərinə səfər etməsi düşmənin dəyirmanına su tökmək faktı kimi qiymətləndirilirdi. O cümlədən, erməni mediası həmin xəyanətkarlıq addımını öz xeyrinə yönləmməyə başlamışdı.

## Azərbaycan hüquq-mühafizə orqanları da Türkiyənin məlum vətəndaşları ilə bağlı cinayət işi açıb

Yeri gəlmişkən, Azərbaycan hüquq-mühafizə orqanları da Türkiyənin məlum vətəndaşları ilə bağlı cinayət işi açıb. Bununla bağlı Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, 22 sentyabr 2017-ci il tarixdə Türkiyə Respublikasının vətəndaşları Ufuk Uras, Əli Bayramoğlu, Səid Çəkinoğlu və Erol Katırçıoğlu Ermənistan Respublikasında və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində olan şəxslərlə qabaqcadan əlbir olub Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müvafiq icra hakimiyyətinin razılığı və sənədləri olmadan, dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan Respublikası ərazisindən qəsdən keçərək Xankəndi və digər yaşayış məntəqələrinə qanunsuz gəlmələrinə əsaslı şübhələr olduğundan 28 sentyabr 2017-ci il tarixdə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddəsi ilə cinayət işi başlanıb.

U.Uras, Ə.Bayramoğlu, S.Çəkinoğlu və E.Katırçıoğlu Cinayət Məcəlləsinin qeyd olunan maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilərək dövlətlərarası axtarışa verilib. Bildirilirdi ki, həmin şəxslərin tutularaq istintaqa cəlb olunmaları məqsədi ilə Türkiyə hüquq-mühafizə orqanlarına müraciət edilib. Hazırda cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir. Bununla Türkiyə tərəfinin də Azərbaycan qanunlarına bənzər və yerində addım atması bir daha sübut edir ki, işğal altında olan ərazilərimizə səfər edən şəxslər kimliklərindən, hansı ölkənin vətəndaşları olmasından asılı olmayaraq, qanunun sərt tərəfi ilə üzləşəcək.

***Rövşən NURƏDDİNOĞLU***

# Müsavat qarşılıqlı ittihamlar burulğanında

***Müsavat partiyasının daxilindəki çəkişmələr hər gün ötən günə nisbətən daha da geniş vüsət almaqla partiyanın fəaliyyətini iflic vəziyyətə gətirib çıxırıb. Partiyanın son qurultayından sonra baş verənlər təşkilatı parçalanmaq həddinə çatdırıb. Xüsusilə, Müsavat başqanı Arif Hacılı və tərəfdarları narazılara qarşı repressiyaları davam etdirməklə yanaşı, partiyada əks-cəbhə faktiki olaraq, susdurulur.***

## “Arif Hacılı qrupuna itaət etməyənlərə düşmən gözü ilə baxılır”

Keçmiş müsavatçı Qabil Rzayev partiyada cərəyan edən hadisələr, qurultaydan sonrakı narazılıqlar, başqan A.Hacılıya qarşı çıxanların cəzalandırılması, partiya daxilində yeni təşkilatların yaradılması və digər hadisələrlə bağlı fikirlərini bölüşərək bildirib ki, bu gün Müsavatda elə bir atmosfer yaranıb ki, A.Hacılı ona itaət etməyənlərə düşmən gözü ilə baxır və partiyadan uzaqlaşdırır: “Əsl diktator elə A.Hacılı və İ.Qəmbərdir. İ.Qəmbər tərəfdaşlarıyla birlikdə milli ideologiyamızı axıra qədər xərcləyib, partiyadakıların beyinlərində və ruhlarında mənəvi dəyərləri tamamilə yox edib. Müsavatın son qurultayında İ.Qəmbərin dəstəyi ilə demokratiyaya göz görəsi təcavüz edildi. Partiyada çoxluq susduruldu. Demokratiyanın bu qədər ayaqlar altına atılmağında İ.Qəmbər və A.Hacılının çox gizli planlarının olduğundan şübhələnirdim. Qubad İbadoğlu başda olmaqla, açıq-aşkar durumu dərk edən səmimi müsavatçılara qarşı siyasi soyqırımı baş verdi. İ.Qəmbər - A.Hacılı ittifaqı daim nəzarətdə saxlaya, idarə edə biləcəkləri bir partiya istəyirlər. “Az olsun, bizim olsun” prinsipi ilə yanaşmadır bu. Məhz bu cür ziddiyyətlərin nəticəsində qarşıdurmalar böyüyür və tərəflər arasındakı söz savaşları isə artır”.

## Müsavatda etirazçılara qarşı linç kampaniyası davam edir

Q.Rzayev onu da bildirir ki, İ.Qəmbər-A.Hacılı cütlüyü haqqını tələb edən hər kəslə amansızcasına davranır, hətta onları əxlaqsızcasına təhqir etdirirlər. Bunun üçün Müsavatda xüsusi qruplar da mövcuddur ki, sosial şəbəkələrdə etiraz səslərini ucaldanlara qarşı söyüşlər yağdırırlar. Mətbuatdan ictimaiyyətin xəbərdar olduğu kimi açıq, ya da gizli şəkildə sosial şəbəkələrdə rəhbərləri və ilham mənbələri olduğu şəxslər tərəfindən böhtanla, təhqirlərlə və hikkə ilə silahlandırılmış bu şəxslər, özlərindən fərqli olan hər kəsə qarşı linç kampaniyası aparıblar. Ümumiyyətlə, Müsavatdaxili qarşıdurmalar partiyadaxili çatların əmələ gəlməsi prosesinə təkan verməklə yanaşı, qurumun fəaliyyətini də iflic edir. Əgər belə davam edərsə, növbəti il keçirilməsi planlaşdırılan prezident seçkilərinə kimi Müsavat rəhbərliyində İ.Qəmbər-A.Hacılı monopoliyası çərçivəsində uzağı beş-üç nəfərin qalacağını proqnozlaşdırmaq olar.

***Rəfiqə HÜSEYNOVA***



# Cəmil Həsənli kimi müdafiə edir?

RƏFİQƏ

***Doğru deyiblər: “ipi qırıq”lara bel bağlamaq olmaz. Dağıdıcı düşərgədə o qədər ipi qırıqlar var ki, özləri də baş verənlərə giriftar olublar, özü də prezident seçkiləri ərəfəsi. Bir də, bu, təəccüb doğurmur. Elə götürək AXCP sədri Əli Kərimlinin ipli kuklası olan sözdə “Milli Şura”nın sədri Cəmil Həsənlini. Əgər xatırlayırsınızsa 2013-cü ildə söyüş, böhtan və şər tuluğuna çevrilən C.Həsənli indi başını yaman itirib. Bir də neyləsin, göz gördüyündən qorxar. 10 il deputat olasan, insanları az-çox tanıyasan, 5-6 nəvən ola, bir tərəfdən yaşın 65-ə “işləyə...” lakin AXCP sədri Ə.Kərimlini Albert Eynşteynlə müqayisə edəsən, bax, dəhşət budur! Deyir hər fəslin öz “qəhrəman”ları olduğu kimi, AXCP-də də hər dövrün öz “öncül”ləri var.***

Əgər oxucularımızın yadındadırsa, bir neçə il bundan öncə, Gözəl Bayramlı AXCP sədrini tərifləyib, onun Nelson Mandella ilə müqayisəsini aparırdı. Ancaq rəhmətlik Həsən Kərimovun bir dəfə bu cür bənzətmələrə və oxşatmalara etiraz etməsini cəbhəçilər necə daş-qalağa tutmuşdular, yazıq bundan sonra oturdu yerində. Ən gülməlisi isə Nurəddin Məmmədlinin rusiyalı müxalifətçi Nemtsovun ölümündən sonra Ə.Kərimlini onunla müqayisə etməsi idi: “Nemtsov Əli bəyə qibtə edirdi...” Buyurun, indi də C.Həsənli onu A.Eynşteynlə bir tərəziyə qoyur. Bax, bu yerdə deyirlər ki, həyasızlığın son nöqtəsi... Ay Cəmil bəy, heç olmasa, belə bir iddia ilə çıxış edəndə, öz yazdığın “Ağ ləkələrin qara kölgəsi” çızma-qaranı gözünün qabağına gətirəydin. Adları çəkilənlərin hamısı siyasətdə, elmdə uğur qazanmış və bütün dünyanın tanıdığı şəxslərdilər. Bəs Ə.Kərimli kimdir? Ə.Kərimli: xəyanət, qisas və intriqalar toplusu. Onu yemləyən əli dişləyən adətən onu təpikləyənin çəkməsini yalayır. AXCP sədri Ə.Kərimli və onun “gerilyeros-banditos” dəstəsi Vətəndən, millətdən və demokratiyadan çox danışsa da, həmişə sözləri əməllərinə zidd olub. Ə.Kərimlinin siyasi karyerası, əslində, sonsuz xəyanətlər, qisaslar, intriqalar toplusudur: o, Azərbaycanda hakimiyyətə gəlmək üçün ölkənin və millətin düşmənləri ilə də separat danışıqlar aparıb, sövdələşib, “maliyyə dəstəyi” və qrantlar qismində paylar alıb, üzərinə öhdəliklər götürüb, sonra hakimiyyətlə danışıqlara can atıb, yeni vədlər verib - amma sonda hamını aldatmağa çalışıb.

Bilirsiniz ki, 21 noyabr YAP-ın təsis olunduğu və yaradıldığı gündür. 1992-ci ildə YAP Naxçıvanda təsis olunandan sonra Bakıdakı cəbhəçilər necə təlaşa düşüblərsə, ailə üzvlərinin də YAP-çı olacaqlarından qorxub, onları da xüsusi nəzarətləri altında saxlayıblar. O vaxt İsgəndər Həmidov bütün təşkilatlara tapşırırmış ki, kim YAP-a iclas keçirmək üçün yer versə, həmin adam həbs olunacaq. Maraqlısı budur ki, İ.Həmidov bunu efirdə deyirmiş. Tarixə bax! İ.Həmidov bu gün üzərində “Yeni Azərbaycan Partiyası” yazılan binaların qarşısından boynu bükülü halda ötüb keçir. Düzgün mövqedə dayanıb, düzgün liderin yanında olmaq lazım idi! Xalqa güllə atmağın sonu çayxanada “sabiq”lərlə birlikdə tum çırtlamaqla nəticələnir. Necə ki, bu gündəsən... Bir də istər C.Həsənli, istər digər bənzətmələr edənlər, bir bezin qırağı olanlar bilməlidirlər ki, xaricdəki “rejissorlar”ın əmrlərini yerinə yetirən Ə.Kərimlini acı tale gözləyir: nədən ki, tarix satqınları heç vaxt bağışlamır, zamanla tale isə bələlərinə qarşı amansız olur.

TƏRS BAXIŞ

# Əli Kərimli köhnə-külüş oyunbazlıqlarından bezmir

*AXCP sədri yenə də "siyasi məhbus" manipulyasiyası edib, xal toplamağa çalışır*

***AXCP sədrinin zaman-zaman "siyasi məhbus" manipulyasiyası altında var-gəl edib əl-ayağa düşməsi, artıq birinci hal deyil. Xüsusilə, nəzarəti altında saxladığı mediası və sosial şəbəkələrdəki qrupları vasitəsilə siyasi dividend qazanmaq cəhdləri sayəsində "siyasi məhbus" oyunbazlığına girən Ə.Kərimli növbəti dəfə həmin oyunbazlığını təkrarlayıb. Guya ölkədə filan qədər "siyasi məhbus"un olduğunu iddia edən AXCP sədri, çox yəqin ki, bu məsələ üzərində mühacir biznesini genişləndirmək məqsədini daşıyır. Ancaq məsələ yalnız bunda deyil...***



## "Siyasi məhbus" siyahısının gerçək görünməsi üçün AXCP sədri özünə ciddi rəqib hesab etdiyi başqa müxalifət "liderləri"nin" də adlarını salıb

Digər bir məsələ Ə.Kərimlinina sözügedən manipulyasiyada pərdəarxası, yəni görünməyən məqamlarıdır. Məsələn, o, "siyasi məhbus" siyahısına bir çox cinayətkarların adını salsa da, onların arasında olan bir neçə nəfərin azadlığa çıxmamasının tərəfdarıdır. Daha dəqiq desək, ictimaiyyətə tanış olmayan isimlərin də yer aldığı qondarma siyahıda əsas məqsəd, məhz onların ailələrindən pul qoparıb, sonradan həmin şəxsləri Qərb ölkələrinə mühacirətə göndərməkdən ibarətdir. Bu baxımdan, "siyasi məhbus" siyahısının gerçək görünməsi üçün AXCP sədri özünə ciddi rəqib hesab etdiyi başqa müxalifət liderlərinin də adlarını salıb.

Dəfələrlə sübuta yetirilib ki, "Milli Şura" və "Yurd" üzvləri rəhbərlik səviyyəsində həmin şəxslərin azad olunmasına qarşı kampaniya hazırlayıblar. Yəni Ə.Kərimli açıq formada siyasi məhbusların azad edilməsini istəmir. Xüsusilə, Ə.Kərimli və ona yaxın qaragüruhçular dəstəsi "REAL" hərəkatının sədri İlqar Məmmədovun, "Milli Şura" üzvü Seymur Həzinin, hətta AXCP sədrinin müavini Fuad Qəhrəmanlının azad olmasını istəmir. Yəni bütün bu çabalamalar heç də səbəbsiz deyil.

## İlqar Məmmədovun həbsdən çıxma ehtimalı, eyni zamanda "REAL"-ın partiyaya çevrilməsi Əli Kərimliyə görə, özünə qarşı güclü rəqibin ortaya çıxması deməkdir

Misal üçün, bəllidir ki, "REAL" hərəkatı idarə heyətinin son toplantılarının birində təşkilatın partiyaya çevrilməsi barədə qərar qəbul edilib. Hətta bu ətrafda hərəkat daxilində müəyyən anlaşılmazlıqlar da yaşanmışdı. Ancaq fakt budur ki, "REAL"-ın partiyaya çevrilməsi nəticə etibarilə həm AXCP-yə, həm də "Milli Şura"ya qurşaqdan aşağı vurulmuş zərbə kimi də qiymətləndirilə bilinər. Söz yox ki, "REAL" rəhbərliyinin bu qərarı Ə.Kərimli və "Milli Şura"nın marağında deyil. Çünki 2013-cü il prezident seçkilərindəki fiaskodan sonra "Milli Şura"nın əvvəlkindən daha da zəifləməsi prosesi başlandı ki, Kərimli bunun üzündən müxalifət daxilindəki olan-qalan nüfuzunu da qeyb etmiş oldu.

Beləliklə, İ.Məmmədovun həbsdənçıxma ehtimalı, eyni zamanda, "REAL"-ın partiyaya çevrilməsi Ə.Kərimliyə görə, özünə qarşı güclü rəqibin ortaya çıxması deməkdir. Ə.Kərimli son zamanlarda AXCP və "Milli Şura" ətrafında baş verənlərdən dolayı xeyli nüfuz itirib və bu yeni müxalifətin ortaya çıxması zərurətini yaradıb. "REAL" partiyaya çevrilsə, Ə.Kərimlinin müxalifət daxilində manevrləri bir qədər də azalacaq. Paralel olaraq, İ.Məmmədovun həbsindən sonra Qərbdə artan nüfuzu və Avropa insan haqları təşkilatları rəhbərlərinin "REAL" sədri ilə intensiv formada keçirilən görüşləri Ə.Kərimli üçün başqa bir zərbədir. Buna görə də, belə bir şəraitdə İlqar Məmmədovun həbsdə qalması Ə.Kərimlinin işinə yarayır.

## Əli Kərimli Seymur Həzini də azadlıqda görmək istəmir çünki o, AXCP sədrliyinə iddialıdır!

Əli Kərimli və "yurdçular", eyni zamanda, S.Həzinin də həbsdən çıxmasını arzulamırlar. Çünki AXCP-nin başıbəlalı qurultayından sonra təşkilat faktiki əldən çıxdı və bu, o fonda baş verdi ki, Kərimliyə qarşı narazılıq edənlər ondan təşkilatda gəncləşdirmə siyasətini aparmalarını tələb edirdilər. İndi Ə.Kərimli ilə qalan azsaylı adamlar da ondan gəncləşdirmə siyasətinin aparılmasını tələb edir. Bu prosesdə iştirak edənlərdən biri də məhbəsdə olmasına baxmayaraq, Əbülfəz Qurbanlının istefasından sonra "Yurd"da boy göstərən və nüfuz dairəsini genişləndirən S.Həzidir. Ə.Qurbanlının ötən il verdiyi gözlənilməz istefası və Natiq Ədilovun Fransaya qaçması S.Həzinin qrupun yeni gənc lideri olmaq yolunda maneələri aradan qaldırdı. Ə.Kərimli ilə müqayisədə bu gün də "Yurd" və "Milli Şura"nın gənc və orta nəsli arasında S.Həzinin nüfuzu güclüdür. Əldə etdiyimiz məlumatlara görə, S.Həzinin özü də AXCP-nin sədri olmaq təkliflərinə müsbət baxır. Təbii ki, onun bu iddiası Ə.Kərimlinin, ümumiyyətlə, maraqlarına uyğun deyil. Belə bir vəziyyətdə də S.Həzinin həbsdən çıxması Ə.Kərimlinin müxalifət adı ilə imitasiya etməsi üçün son resurslarının da əlindən çıxmasını rəsmiləşdirəcək.

## Fuad Qəhrəmanlının da AXCP sədrinin üzünə çırpılası sözləri çoxdur

Fuad Qəhrəmanlıya gəlincə, bəllidir ki, AXCP sədrinin müavini, məhz onun tələsinə düşərək, hazırda "Nardaran işi" üzrə mühakimə olunur. Belə bir vəziyyətdə Ə.Kərimli yaxşı bilir ki, əgər Qəhrəmanlı həbsdən çıxarsa, onun qarşısına kifayət qədər minnətlər qoyub, hətta sədrliyə iddialı ola bilər. Çünki uzun illər AXCP-də fəaliyyət göstərməsinə rəğmən, F.Qəhrəmanlı Ə.Kərimli tərəfindən heç vaxt mükafatlandırılmayıb. Hətta zaman-zaman küncə belə sıxışdırılıb. İndi isə hər şey başqa cür ola bilər. Bu baxımdan, AXCP sədrinin növbəti "siyasi məhbus" oyunbazlığı, bilavasitə onun şəxsi maraqlarına hesablanıb. Sadəcə, onun qarşısını kəsən bir neçə baryer var ki, bundan yayınmağa çalışır. Lakin hər şey onun istəmədiyi kimi də baş verə bilər. Məsələn, adları çəkilənlər azadlığa da buraxıla bilərlər. Bax, onda AXCP sədrinin "siyasi məhbus" oyunbazlığı başa çata bilər. Çünki onların hər biri Kərimli üçün ciddi rəqib və siyasi konkurentdirlər. Beləliklə, Fuad Qəhrəmanlının da AXCP sədrinin üzünə çırpılası sözləri çoxdur.

***Rövşən NURƏDDİNOĞLU***

# Müxalifət fiaskoya məhkumdur

*Mais Səfərli: "Rəsul Quliyev gülüş hədəfinə çevrilib"*



**Müsahibimiz "Yurddaş" Partiyasının sədri Mais Səfərlidir**

***- Mais bəy, son vaxtlar müxalif partiya funksionerləri arasında isti münasibət yaranmağa başlayıb. Sizcə, bunun qarşıdan gələn prezident seçkiləri ilə hər hansı bir formada əlaqəsi ola bilərmi?***

- Bu bir faktdır ki, ölkədə hər hansı seçkilər yaxınlaşdıqca, dağıdıcı müxalifət düşərgəsini təmsil edən liderlər bir araya gəlməyə çalışırlar. Müxalifətin bir araya gəlməsi özlərinin istəyi ilə deyil. Bu, xarici havadarlarının onlara verdiyi növbəti tapşırıqdır ki, bir müddətlik olsa da birləşsinlər. Yəni həm özlərinin, həm də xarici qüvvələrin maraqları onları bir araya gətirir. Əslində isə, radikal müxalifət düşərgəsində təmsil olunan partiyalar arasında çox ciddi ziddiyyətlər var. Bu ziddiyyətlərin də ən başlıca səbəbi onların hərəsinin bir qütbə bağlı olmasıdır. Zaman yetişdikcə, o qütblərdən aldıqları əmrlər vasitəsi ilə hərəkət edirlər. Seçkilər qurtaran kimi müxalifət düşərgəsini təmsil edən şəxslər bir-birinə qarşı yenə də düşmən münasibəti bəsləyirlər. Ümumiyyətlə, müxalifət partiyalarının bir-biri ilə yola gedə bilməməsinin səbəbi, məhz şəxsi ambisiyaları, birinin digərindən üstün olmaq istəyi və s.kimi məsələlərdir.

***- Rəsul Quliyev Bakıya qayıdacağını və müxalifətin "vahid namizədi" olaraq, prezident seçkilərinə qatılacağını bəyan edib. Sizcə, onun Bakıya gəlib, öz iddiasını reallaşdırmaq imkanı varmı?***

- Rəsul Quliyev namizəd olmaq üçün heç olmasa Azərbaycana gəlməlidir. Yəni bir gəlsin bura, ayaq bassın torpağa və ondan sonra görsün ki, Azərbaycanda nə var, nə yox. Artıq 20 ilə yaxındır ki, Azərbaycanı okeanın o tayından seyr edir. Gerçəklikdə Azərbaycan tamam başqa Azərbaycandır. R.Quliyevin ölkəni tərk etdiyi vaxtdan Azərbaycan böyük bir inkişaf yolu keçib. Okeanın o tayından bəyanatlar vermək asan məsələdir. Kim siyasətlə məşğul olmaq istəyirsə öz ölkəsində məşğul olmalıdır. Yəni burda olmaya-olmaya, onun bu cür fikirlər səsləndirməsi gülüş doğurur. Demək olar ki, artıq R. Quliyev gülüş hədəfinə çevrilib. Nəyə görə? Çünki okeanın o tayında oturub, Azərbaycanda gedən proseslərə qiymət vermək ən aşağısı gülüş doğuran bir məsələdir. Müxalifət partiya sədrlərinin və o cümlədən, R.Quliyevin 2018-ci ildə keçiriləcək prezident seçkilərində qalib gəlmək şansları sıfıra bərabərdir. Çünki Azərbaycanda seçicilərin rəğbətini qazanmaq üçün şansları olduqca aşağıdır.

***- Necə düşünürsünüz, İsa Qəmbər və Əli Kərimli kimi böyük iddialı müxalif partiya sədrlərinin olduğu bir məqamda R. Quliyevin müxalifətin namizədi kimi çıxış etməsi nə dərəcədə mümkündür?***

- Bu seçkilərdə onlar öz namizədliklərini verə bilərlər. Amma burada söhbət ondan gedir ki, adları çəkilən bu şəxslər namizəd ola biləcəklərmi? Namizəd olmaq üçün səs toplanılmalıdır. Yəni bütün bunları nəzərə alaraq, demək olar ki, Azərbaycan xalqının radikal müxalifət düşərgəsini təmsil edən şəxslərə heç bir siyasi dəstəyi yoxdur. Çünki xalqımız bunların kim olduqlarını və nəyə qadir olduqlarını çox yaxşı bilir. Azərbaycan nəinki, regionda, ümumiyyətlə, dünyada o dövlətlərdəndir ki, heç bir böyük gücə bağlı deyil və müstəqil şəkildə siyasət həyata keçirir. İnkişaf etmiş Azərbaycanı istəməyən qüvvələr çalışırlar ki, ölkədə qarşıqlıq yaratsınlar. Bunu üçün də ələbaxım rolunda çıxış edən müxalifətdən istifadə edirlər. Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasət, yalnız Azərbaycan xalqının və dövlətinin maraqlarına xidmət edir. Cənab Prezidentimiz İlham Əliyev Azərbaycan dövlətini heç bir xarici gücün iradəsindən asılı olmağa qoymur. Azərbaycan dövlətinin əldə etdiyi uğurlara qısqanclıq hissi ilə yanaşan qüvvələr indi də çalışırlar ki, 2018-ci ildə keçiriləcək prezident seçkilərinə qədər radikal müxalifət düşərgəsinə maliyyə yardımları ayıraraq, ölkəmizdə nə isə bir xoşagəlməyən bir vəziyyət yaratsınlar. Amma onların bu istəkləri heç vaxt baş tutmayacaq.

***GÜLYANƏ***

# Ulu Öndər Heydər Əliyevin Sovet dövründə Azərbaycan təhsilinə qayğısı

***Ulu Öndər Heydər Əliyev hələ Sovet dövründə Azərbaycanda ibtidai, orta və ali təhsilə möhkəm qayğı göstərirdi. AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı Ulu Öndər Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafı ilə bağlı fəaliyyətini aşağıdakı kimi səciyyələndirir: "Heydər Əliyevin təhsil sahəsində fəaliyyəti, əsasən, aşağıdakı istiqamətləri əhatə edirdi: Azərbaycan maarif sisteminin ştat heyətini yerli kadrlar hesabına milliləşdirir, respublikanın hər yerində, xüsusən, kənd yerlərində məktəblər tikdirir, müəllimlərə qayğı göstərir, təyinat sistemini genişləndirir, təyinatla kənd yerində işləyən müəllimlərə mənzil kirayə haqqı verilir və digər güzəştlər edilir, gənclərin ali təhsil almalarına şərait yaradılır, kənd yerlərini mütəxəssislərlə təmin etmək məqsədilə gənclər ali məktəblərə müsabiqədənkənar qəbul etdirilir, ali məktəblərin sayını artırır, onların maddi-texniki bazasını gücləndirir, Azərbaycan təhsilinin qabaqcıl dünya ölkələrinin təhsil sistemi ilə eləqəsini qurmaq üçün səylər göstərirdi.***

Heydər Əliyev, ilk növbədə, Azərbaycan Maarif Nazirliyinin tərkibini milliləşdirməyə başlayaraq, ona uğurla nail oldu. Kadrlara tələbat artırıldı. Azərbaycanlı təhsil işçilərinin nazirlik sistemində işə qəbulu gücləndirildi. İşdə nöqsanlara yol verənlər, o cümlədən, qeyri-azərbaycanlılar tutduqları vəzifədən azad edilirdilər. Məsələn, Azərbaycan KP MK-nın 1970-ci il 13 mart tarixli büro iclasında maarif nazirinin müavini R.A.Balayanın düzgün olmayan hərəkətləri müzakirə olundu və o, işdən azad edildi.

Heydər Əliyev hakimiyyətə gələrkən, xalq maarifi müəssisələrinin saxlanılmasına çəkilən xərclər xeyli az olduğundan, onun artırılmasına böyük səylə çalışır və buna nail olurdu. Xalq maarifi müəssisələrinin saxlanılmasına ayrılan xərclər 1969-cu ildən başlayaraq, hər il daim artırılırdı. Məsələn, Azərbaycanın 1977-ci il dövlət büdcəsində xalq maarifinin saxlanılmasına 377,1 mln. manat ayrıldı ki, bu da 1976-cı illə müqayisədə 19,3 min manat çox idi.

Ulu Öndərin hakimiyyəti illərində yeni-yeni ibtidai və orta məktəblər açıldı:

* köhnə məktəblər təmir edildi; qızların məktəblərə cəlb edilməsi gücləndirildi; yeni internat məktəbləri tikildi;

* ali təhsilli müəllimlərin sayı artırıldı;

* müsabiqədənkənar qəbulla bağlı nöqsanlar aradan götürüldü;

* kənd yerlərində işləyən müəllimlərə xüsusi qayğı göstərildi, onlara güzəştlər edildi;

* müəllimlərə xüsusi qayğı göstərildi.

Müsa Qasımlı Heydər Əliyevin Azərbaycanda ali təhsilin inkişafı ilə bağlı gördüyü tədbirlər haqqında yazır: "Heydər Əliyev Azərbaycanda ali təhsilin inkişafına xüsusi diqqət yetirir, onun şəbəkəsini genişləndirir, tələbələrin sayını artırır, müəllimlərə qayğı göstərirdi. Artıq qeyd edildiyi kimi, Heydər Əliyev hakimiyyətə gələrkən, respublikada cəmi 13 ali məktəb fəaliyyət göstərirdi. Lakin O, belə hesab edirdi ki, ali məktəblərin sayı Azərbaycan əhalisinin artan tələbatını ödəmir. Ona görə də, Azərbaycan rəhbəri ali məktəblərin açılması işinə diqqət yetirirdi. Məhz Onun sayəsində 1980-ci ildə ali məktəblərin sayı 17-yə çatdırıldı, Bakıda Rus Dili və Ədəbiyyatı İnstitutu, İnşaat Mühəndisləri İnstitutu, Naxçıvanda və Stepanakertdə institutlar açıldı. 1976-1980-ci illərdə ali məktəblərdə 23 yeni fakültə və 72 yeni kafedra yaradıldı. Artıq 1980-ci ildə respublikada 140-dan çox müxtəlif ixtisas üzrə mütəxəssislər hazırlayan 75 orta ixtisas məktəbi var idi. Əgər əvvəlki illərdə bu sahədə Azərbaycan qonşu respublikalardan geri qalırdısa, Heydər Əliyevin fəaliyyəti nəticəsində ali və orta ixtisas təhsilli kadrların hazırlanmasının səviyyəsinə və miqyasına görə nəinki onları, hətta Şərq ölkələrini xeyli geridə qoymuşdu. Artıq respublika əhalisinin hər 10 min nəfərindən 172-si tələbə idi. Lakin Heydər Əliyev bununla kifayətlənməyərək, ali məktəblərin açılması işini davam etdirirdi. Bilavasitə, onun səyləri ilə 1981-ci ildə Azərbaycanda 18-ci ali məktəb olan Texnologiya İnstitutu açıldı. Bu institutun yaradılması respublikada yeni ixtisaslar üzrə mütəxəssislərin hazırlanmasına imkan verirdi.

Ümumiyyətlə, Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanda beş yeni ali məktəb açıldı, onların maddi-texniki bazası möhkəmləndirildi, cihazlar, müxtəlif ləvazimatlar alınıb gətirildi, yataqxanalar tikildi. Bütün bunlar Azərbaycanda təhsilin səviyyəsinin yüksəlməsinə kömək edirdi. Beləliklə, Azərbaycan bütün Sovet hakimiyyəti illərində, ilk dəfə olaraq, Cənubi Qafqazda qabaqcıl təhsil mərkəzinə çevrildi.

Heydər Əliyev ali məktəblər içərisində Azərbaycanın ilk ali təhsil ocağı olan Bakı Dövlət Universitetinə xüsusi qayğı göstərirdi. O, tələbələrin tərkibində qızların çox olmasına çalışırdı. Alimlərin sayının artırılmasına diqqət yetirirdi. Qeyd etmək lazımdır ki, 1920-ci ildə Azərbaycan Dövlət Universitetini bitirən 1412 nəfərin yalnız 259 nəfəri azərbaycanlı, o cümlədən, 40 nəfəri qadın idi. 1939-1941-ci illərdə universiteti 479 nəfər bitirmişdi. Universitet alimlərinin sayı da daim artırdı, 1938-1940-cı illərdə universitetin elmi şurasında 1 doktorluq, 39 namizədlik dissertasiyası, 1941-1945-ci illərdə isə 13 nəfər, o cümlədən, 8 nəfər azərbaycanlı doktorluq, 118 nəfər, o cümlədən, 68 nəfər azərbaycanlı namizədlik dissertasiyası müdafiə etmişdi. 1945-ci ildən sonra universiteti bitirənlərin sayı 21 min 928 nəfər olmuşdu. 1946-1969-cu illərdə isə əvvəlki 25 illə müqayisədə 8,3 dəfədən çox ali təhsilli mütəxəssis hazırlanmışdı. Qeyd etmək lazımdır ki, 70-ci illərdə universitetin tələbələrinin təxminən 75%-ni azərbaycanlı oğlan və qızlar təşkil edirdi.

Ali məktəblərin yubileylərinin keçirilməsi də Heydər Əliyevin fəaliyyətində başlıca yerlərdən birini tuturdu. O, bu baxımdan, Azərbaycan elm, təhsil və mədəniyyətinin inkişafında müstəsna rol oynamış Bakı Dövlət Universitetinə xüsusi diqqət verirdi. Onun fikrincə, universitetin auditoriyalarında və kafedralarında işləyənlər, dərs verən müəllimlər Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli ruhunun inkişaf etdirilməsi sahəsində müstəsna rol oynayırdılar. Heydər Əliyev 1969-cu il noyabr ayının 1-də universitetin 50 illik yubileyi münasibətilə keçirilən təntənəli yığıncaqda ana dilində parlaq nitq söylədi. Heydər Əliyev deyirdi ki, Azərbaycan Dövlət Universitetinin yaranması qabaqcıl qüvvələrin qələbəsi, doğma xalqı maarifləndirmək uğrunda, dünya mədəniyyəti və elmi xəzinəsini onun üzünə açmaq uğrunda Azərbaycanın ən yaxşı oğullarının bir çox illər ərzində apardıqları mübarizənin yekunları idi. O, bu sözləri ilə Azərbaycan istiqlalına və onun uğrunda mübarizə aparan qüvvələrə, eyni zamanda, Xalq Cümhuriyyəti xadimlərinə olan dərin ehtiramını açıq şəkildə bildirirdi. Nəzərdən qaçırmaq olmaz ki, Heydər Əliyev bu fikirlərini universiteti yaratmış Azərbaycan Xalq Cümhuriyyətini düşmən sayan, həmin dövrü unutdurmağa çalışan Kommunist Partiyasının respublikadakı rəhbəri kimi çəkinmədən söyləyirdi".

M.Qasımlı daha sonra yazır: "O vaxt bəziləri belə düşünürdü ki, Heydər Əliyev ana dilində, Azərbacan dilində danışa bilmir. Lakin Onun bu nitqi Azərbaycan cəmiyyətində əsl sensasiya oldu. Hətta bəziləri Ona yaxınlaşaraq, ana dilində danışdığı üçün təbrik edir və minnətdarlıqlarını bildirirdilər. Ana dilini sevən, milli ruhla yaşayan adamlar üçün Heydər Əliyevin ana dilində danışması böyük bir hadisə idi. O isə həmin adamlarla söhbətində bildirdi ki, təəccüblənmək lazım deyil, bu dil mənim ana dilimdir və ana dilində danışmaq qəhrəmanlıq deyil. Amma əslində, Sovet sistemi şəraitində respublika rəhbərinin ana dilində, həm də yüksək milli ruhda nitq söyləməsinin özü və rəhbərlik üçün bir sıra arzuolunmaz nəticələri ola bilərdi.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

Heydər Əliyev bu nitqi ilə ana dilinə sevginin və onu inkişaf etdirməyin vacibliyini tövsiyə edir, milli ənənələrin inkişafında rolunu qiymətləndirirdi. Heydər Əliyev gurultulu səslə deyirdi: "Azərbaycan xalqının ən yaxşı ənənələri Azərbaycan Dövlət Universitetində inkişaf etdirilmişdir". O, Azərbaycan dilinin, xalqın milli ruhunun, milli şüurunun və vətənpərvərlik hisslərinin inkişafında universitetin müstəsna rol oynadığını yüksək dəyərləndirirdi.

Universitetin yubileyində ölkənin müxtəlif şəhərlərindən və xarici dövlətlərdən - Bolqarıstan, Çexoslovakiya, Macarıstan və b. ölkələrdən qonaqların gəlməsi Azərbaycan elm və təhsilinin beynəlxalq aləmdə qəbul edilməsinin nümunəsi idi. Universitetin yubileyinin keçirilməsi Azərbaycan elm və mədəniyyətinin böyük bayramı oldu. Tədbirin keçirilməsi ilə kifayətlənməyən Heydər Əliyev universitetin dövlət mükafatı ilə təltif edilməsi barədə məsələyə dair təşəbbüs irəli sürdü. Bilavasitə, Onun səyləri nəticəsində universitet 1971-ci ildə Qırmızı Əmək Bayrağı Ordeni ilə təltif edildi. Ordeni şəxsən Heydər Əliyev təqdim etdi".

Heydər Əliyev bundan başqa kapitalist və sosialist sistemli dövlətlərin yaxınlaşmalarından istifadə edərək, təhsil sahəsində aşağıdakı tədbirləri gördü:

* Azərbaycanda amerikan təhsil sistemini tanıtdı;

* Azərbaycan təhsilinin beynəlxalq əlaqələrini gücləndirdi;

* Azərbaycanda xarici ölkələr üçün mütəxəssis hazırlığını genişləndirdi.

Musa Qasımlı yazır: "Asiya, Afrika, Latın Amerikası və hətta Avropanın sosial-iqtisadi inkişaf istiqamətinə və səviyyəsinə görə müxtəlif olan ölkələri üçün Azərbaycanın təhsil ocaqlarında hazırlanan kadrlar təhsillərini başa vurduqdan sonra vətənlərinə qayıdaraq müxtəlif vəzifələrdə, bəziləri isə sonralar, hətta dövlət başçıları kimi işləmişlər.

Azərbaycan rəhbəri, eyni zamanda, imkan daxilində azərbaycanlı tələbələrin xarici ölkələrin universitetlərində praktika keçmələrinə və mübadilə proqramları çərçivəsində təhsil almalarına da nail olurdu. Məsələn, təkcə 1979-cu ildə 122 nəfər azərbaycanlı tələbə Almaniya Demokratik Respublikası, Polşa, Çexoslovakiya, Macarıstan və Yuqosiaviyada təhsil almağa göndərilmişdi. Öz növbəsində, həmin ölkələrdən də tələbələr Azərbaycana oxumağa gəlmişdilər. Bu ölkələr sosialist dövlətləri olsalar da, hər halda, Avropa ölkələri kimi onlarda elm, təhsil və mədəniyyətin yüksək səviyyəsi həmişə xüsusi vurğulanırdı.

Sovet sistemi şəraitində Azərbaycan xarici ölkələrlə bir-başa əlaqə yarada bilmədiyindən Heydər Əliyev azərbaycanlı gənclərin ölkənin qabaqcıl ali məktəblərində müxtəlif ixtisaslara yiyələnmələri üçün şərait yaradırdı. O, gənclərə dünya elminin ən son nailiyyətlərindən və təhsil aldığı şəhərin əhalisinin mədəniyyətindən xəbərdar olmağı tövsiyə edirdi".

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 14 noyabr

## Nobel mükafatçısının gitarası hərracda 400 min dollara satılıb



Amerikalı məşhur yazıçı, mahnı sözlərinin müəllifi və ifaçısı, rəssam və kino-aktyor Bob Dilanın gitarası Dallasda hərracda 396,5 min dollara satılıb. Alıcının adı açıqlanmır. AZƏRTAC Rusiya KİV-lərinə istinadla xəbər verir ki, əfsanəvi musiqiçi gitaranı 1963-cü ildə alıb və 10 ildən çox bu musiqi alətində ifa edib. Bob Dilan 1970-ci illərin sonunda həmin gitaranı öz ustasına 500 dollara satıb. Xatırladaq ki, musiqiçi 2016-cı il oktyabrın 13-də "Amerika mahnı ənənələri çərçivəsində yeni poetik ifadə forması yaradılmasına görə" Nobel mükafatı alıb.

## Dünyada ən güclü kvant kompüter yaradılıb



"IBM" şirkəti 50 kvant nüvəyə malik ilk kompüter prototipi yaradıb. Mütəxəssislərin fikrincə, belə məhsuldarlıq kvant hesablamanın ənənəvi kompüterlərdən üstün olmasını deməyə əsas verir. Hesab olunur ki, 50 kubitdən çox gücə malik sistemlər adi kompüterlərin edə bilmədikləri modelləşdirmə və hesablamaları yerinə yetirir. Bundan başqa, şirkət istifadəçilərə 20 kubit məhsuldarlığa malik "Quantum Experience" "bulud" servisindən yararlanmaq imkanı yaradıb.

AZƏRTAC xəbər verir ki, şirkətin məlumatına görə, "IBM" növbəti ildə kvant hesablamalar sahəsində texnologiyaların təkmilləşdirilməsi və yaxşılaşdırılması üzərində işi davam etdirməyi planlaşdırır.

Kvant kompüter iş prinsipi adi kompüterlərdən fərqlənən və kvant mexanikası əsasında işləyən hesablayıcı qurğudur. Bu qurğuda ənənəvi bitlərin əvəzinə kubitlərdən istifadə olunur. Onun praktiki tətbiqi hələlik sübut edilməyib. Bununla belə, hesab edilir ki, kvant kompüter tranzistorların daim azalması şəraitində texnologiyaların inkişafı üçün fiziki maneələri aradan qaldıra bilər. Kubitlər və ya kvant bitlər informasiyanın kvant kompüterdə saxlanılması elementləridir. Kvant mexanikasının qanunları onlara ikili vəziyyətdə olmağa imkan verir ki, bunun sayəsində də kompüter paralel hesablamalar apara bilir. Lakin kubitlər temperatur və maqnit sahəsi dəyişikliklərinə qarşı çox həssasdır.

## İspaniya zeytun yağı ixracından 3,1 milyard avro qazanıb

İspaniya 2016-cı ildə zeytun yağı ixracından 3,1 milyard avro, 2017-ci ilin ilk rübündə isə 1 milyard avro gəlir əldə edib. AZƏRTAC xəbər verir ki, uzun illər bu sahədə dünya lideri olan İtaliyanı üstələyən İspaniya, hazırda dünyada istehsal olunan zeytun yağının 44 faizini verir. İspaniyanın zeytun yağı istehsalçılarının təşkilatına rəhbərlik edən Tereza Peres bu göstəricini tarixi hadisə və onilliklərlə aparılan məqsədyönlü fəaliyyətin nəticəsi kimi qiymətləndirib. Hazırda İspaniya istehsalı olan zeytun yağı dünyanın beş qitəsində satılır və keyfiyyəti ilə seçilir.

## ELAN

ADPU-nun Riyaziyyat ixtisası üzrə IV kurs tələbəsi Zeynalova Tərgül Məhərrəm qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

ADPU-nun Təsviri incəsənət ixtisası üzrə I kurs tələbəsi Aşımov Nofəl Zaur oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Hindistan Respkblikası vətəndaşı Rakhesh Ramachandra Kurup-ın Azərbaycan Respublikasının ərazisində MYİ 0366104 nömrəli Müvəqqəti Yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Karateçilərimiz Avropa çempionatında bir qızıl və iki bürünc medal qazanıblar



Polşanın Kielse şəhərində karatenin kyokşin və şinkyokşin növləri üzrə kadetlər, 16 və 22 yaşadək idmançılar arasında Avropa çempionatı keçirilib. Azərbaycan Kyokşin Karate Federasiyasının məlumatına görə, 33 ölkənin iştirak etdiyi çempionatda milli federasiyanın vitse-prezidenti Allahverdi Rüstəmovun rəhbərliyi altında ölkəmizi qızların yarışında Solmaz Zeynallı (60 kq), oğlanların mübarizəsində isə Niyaməddin Əliyev (65 kq), Eltac Hümbətov, Kərəm Fərhadov (hər ikisi 75 kq), Kərim Eyyubov (80 kq), Rüfət Babayev, Turan Şirinov (hər ikisi 85 kq) təmsil ediblər.

Təmsilçimiz Eltac Hümbətov Danimarka, Litva, Gürcüstan, Ukrayna və finalda İsveç idmançısına qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Turan Şirinov və Solmaz Zeynallı isə Avropa çempionatının bürünc medalını qazanıblar. Qeyd edək ki, turnirə Azərbaycandan olan beynəlxalq dərəcəli hakimlər Mübariz Məlikov, Qabil Sayadov və Mehdi Əhmədov dəvət alıblar.

## Sebastyan Fettel Formula-1 üzrə Braziliya Qran-Prisində qalib gəlib



"Ferrari" komandasının almaniyalı pilotu Sebastyan Fettel Formula-1 üzrə Braziliya Qran-Prisinin qalibi olub. AZƏRTAC xəbər verir ki, "Mercedes" komandasının finlandiyalı pilotu Valtteri Bottas ikinci, "Ferrari" komandasının finlandiyalı pilotu Kimi Raykkonen isə üçüncü yeri tutub. Formula-1 üzrə dünya çempionatının sonuncu mərhələsi dekabrın 26-da Birləşmiş Ərəb Əmirliklərində keçiriləcək.

## Azərbaycan-Kosovo oyununu estoniyalı hakimlər idarə edəcək




İyirmi bir yaşadək futbolçulardan ibarət komandalar arasında Avropa çempionatının seçmə qrup mərhələsi çərçivəsində noyabrın 14-də Azərbaycan və Kosovo yığmaları arasında keçiriləcək oyunun hakimləri müəyyənləşib. AFFA-nın məlumatına görə, görüşü estoniyalı baş hakim Roomer Tarajev idarə edəcək. Ona həmyerliləri Hannes Reinvald və Neeme Neemlaid kömək edəcəklər. Dördüncü hakim funksiyasını Eiko Saar yerinə yetirəcək. Matç "Dalğa Arena"da saat 18:00-da start götürəcək.

## Futbol üzrə Mərakeş millisi 20 ildən sonra dünya çempionatında iştirak edəcək



Futbol üzrə Mərakeş milli komandası 2018-ci ildə Rusiyada keçiriləcək dünya çempionatının seçmə mərhələsinin "C" qrupunda sonuncu matçda Kot-d-İvuar komandasını 2:0 hesabı ilə məğlub edərək 20 illik fasilədən sonra mundialda iştirak hüququ qazanıb. AZƏRTAC xəbər verir ki, yığma komandanın bu uğuru ölkədə böyük sevinclə qarşılanıb. Oyundan dərhal sonra Kral VI Məhəmməd milli komandanın baş məşqçisi Herv Renarda telefon açaraq onu və futbolçuları qələbə münasibətilə təbrik edib. Vətənə qayıdan komandanın üzvlərini Rabat hava limanında çoxlu sayda azarkeş qarşılayıb.

## "Çelsi"nin 120 milyonluq transfer planı



"Çelsi" qışda hücum xəttini gücləndirməyi planlaşdırır. Qol.az-ın "The Sun"a istinadən yaydığı xəbərə görə, "Qarabağ"ın Çempionlar Liqasındakı rəqibi olan London təmsilçisi "İnter"in hücumçusu Mauro İkardini transfer etmək istəyir. "Zadəganlar"ın bu keçid üçün 120 milyon avro ödəməyə hazır olduğu bildirilir. Qeyd edək ki, 24 yaşlı argentinalı futbolçu 2013-cü ildən "İnter"də çıxış edir. İkardi bu mövsüm A Seriyasında keçirdiyi 12 oyunda 11 qol vurub. Onun xidmətində "Arsenal" və "Bavariya" da maraqlıdır.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**